

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 52 (894) ■ 27 dekabr 2017 | www.vergiler.az | Qiyməti: 60 qəp.

## Prezident İlham Əliyevdən dünyaya mesaj:

# Azərbaycan sivilizasiyalar arasında körpü rolunu oynayır

Dekabrın 21-də Bakıda Heydər Əliyev Mərkəzində «2017 - İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq» mövzusunda beynəlxalq konfrans keçirilib. 40-a yaxın ölkədən 150-dək nümayəndənin, o cümlədən tanınmış dövlət, din və elm xadimlərinin, müxtəlif ölkələrin dövlət başçılarının xüsusi nümayəndələrinin, dini konfessiya rəhbərlərinin, diplomatik korpusun və ictimaiyyətin nümayəndələrinin qatıldığı açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev də iştirak edib.



Tədbirdə nitq söyləyən dövlətimizin başçısı bildirib ki, bu il ölkəmizdə elan edilmiş «İslam Həmrəyliyi İli» çərçivəsində Azərbaycanda beynəlxalq konfranslar, tədbirlər keçirilib. Azərbaycan xalqı əsrlər boyu öz milli mənəvi dəyərlərini yaşatmış, qorumuşdur: «İslam dəyərləri isə milli mənəvi dəyərlərimizin tərkib hissəsidir. Ölkəmizdə dini sahədə hökm sürən əmin-amanlıq, qarşılıqlı anlaşma, müsəlmanlar arasında mövcud olan birlik, dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi bu gün ölkəmizi gücləndirən amillərdən biridir».

Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan beynəlxalq aləmdə müsəlman ölkələri ilə çox yaxın münasibətlər qura bilib: «Biz cəmi 26 ildir ki, müstəqil dövlət kimi yaşayırıq. Bu illər ərzində ikitərəfli və üçtərəfli formatlarda, beynəlxalq təşkilatlar çərçivəsində müsəlman ölkələri ilə əlaqələrimiz inkişaf edir, gündən-günə güclənir. Biz BMT-də və digər beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik. Keçən il İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı çox önəmli qətnamə qəbul edilmişdir və Kontakt Qrupu yaradılmışdır. Onu da qeyd etməliyəm ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının çox fəal üzvüdür, ölkəmizdə bir çox konfranslar, tədbirlər keçirilmişdir. Azərbaycanın təşəbbüsü ilə İƏT-in Gənclər Forumu, Əmək Mərkəzi və Jurnalistlər Assosiasiyası yaradılmışdır. Eyni zamanda, Azərbaycan ISESCO-nun fəal üzvüdür. ISESCO İslam aləminin təhsil, elm, mədəniyyət təşkilatıdır və bu təşkilat çərçivəsində Azərbaycan çox uğurlu fəaliyyət göstərir. Beləliklə, ISESCO və bütün müsəlman aləmi Azərbaycana daim diqqət və dəstək göstərir. Bir neçə il bundan əvvəl ISESCO tərəfindən Bakı şəhəri İslam mədəniyyətinin paytaxtı elan edilmişdir və bir il ərzində ölkəmizdə, Bakıda bir çox tədbirlər keçirilmişdir. Qeyd etməliyəm ki, gələn il isə bizim digər qədim şəhərimiz - Naxçıvan İslam mədəniyyəti paytaxtı adına layiq görülübdür».

> **“Ölkəmizdə dini, milli zəmində heç bir problem yoxdur. Əfsuslar olsun ki, son vaxtlar biz tam əks mənzərə ilə üzləşirik - dözümsüzlük, islamofobiya, ksenofobiya, antisemitizm artır. Bu, bəşəriyyət üçün ciddi təhlükədir və böyük bəladır**

Prezident İlham Əliyev bildirib ki, Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır, heç bir ayrı-seçkilik yoxdur, olmayıb və ola da bilməz. Bu, bizim böyük sərvətimizdir. Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan sivilizasiyalar arasında həmişə müsbət rolunu oynayıb və Asiya ilə Avropa arasında həm coğrafi, həm mədəni və bu gün siyasi baxımdan bir körpü rolunu oynayır: «Ölkəmizdə dini, milli zəmində heç bir problem yoxdur. Əfsuslar olsun ki, son vaxtlar biz tam əks mənzərə ilə üzləşirik - dözümsüzlük, islamofobiya, ksenofobiya, antisemitizm artır. Bu, bəşəriyyət üçün ciddi təhlükədir və böyük bəladır. Din xadimlərinin, ictimai xadimlərin, siyasətçilərin, geniş ictimaiyyətin bu məsələ ilə bağlı fikri və mövqeyi əlbəttə ki, dünya ictimaiyyəti üçün də çox önəmlidir. Bakıdan, yüksək mötəbər kürsülərdən dəfələrlə dünyaya çağırış edilmişdir ki, dinlərarası münasibətlər hər bir ölkə üçün önəmlidir. Dünyada əksər ölkələr çoxmillətli və çoxkonfessiyalı ölkələrdir. Belə olan halda bu mövzu vətəndaş sülhü, vətəndaş həmrəyliyi üçün, hər bir ölkə üçün xüsusi əhəmiyyət kəsb edir. Biz öz tərəfimizdən ölkə daxilində bütün məsələləri ən yüksək səviyyədə həll edirik. Eyni zamanda, əminəm ki, bölgədə və dünyada Azərbaycan təcrübəsi öyrənilir».

Azərbaycan Prezidenti respublikamızın mədəniyyətlərarası dialoqun inkişafında və İslam həmrəyliyinin güclənməsi işində öz mühüm rolunu davam etdirəcəyini diqqətə çatdırıb. Dövlətimizin başçısı çıxışında ölkəmizin İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində həm özəl münasibətləri, həm də bu təşkilat çərçivəsində oynadığı fəal rol barədə danışıb, cari ildə Bakıda keçirilən İslam Həmrəyliyi Oyunlarının əhəmiyyətinə toxunub, həmçinin Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyinin dəyişməz olduğunu vurğulayıb. Konfransda çıxış edən İran Prezidenti Aparatının rəhbəri Mahmud Vaezi, Türkiyənin Diyanət İşləri Başqanı Əli Ərbaş, Özbəkistan Prezidentinin dövlət müşaviri Rüstəm Kamilov, Vatikanın Dinlərarası Dialoq üzrə Pontifik Şurasının İslam ilə dialoq departamentinin rəhbəri Xaled Akaşe, Fransa Mitropoliti və Ekümenik Patriarxlığın eqzarxı Emmanüel Adamakis, Axaltsixi və Tao-Klarcet Mitropoliti, Katolikos-Patriarx II İliyanın Vikarisi və xüsusi nümayəndəsi Teodor, ISESCO-nun baş direktoru Əbdüləziz Əl-Tuveycri və Qafqaz Müsəlmanları İdarəsinin sədri, MDB Dinlərarası Şuranın həmsədri Şeyxülislam Allahşükür Paşazadə dini həmrəylik, mədəniyyətlərarası dialoq və tolerantlığın, xalqlar arasında birgə yaşayışın təşviqi işinin gücləndirilməsinin vacibliyinə toxunublar.

# Dünya azərbaycanlılarına

**Əziz həmvətənlər!**
**Hörmətli soydaşlar!**

Milli birlik və Vətənə məhəbbət kimi nəcib duyğuları təcəssüm etdirən 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində hər birinizi ürəkdən salamlayır və ən xoş arzularımı çatdırıram.

Qəlbi həmişə doğma yurda sevgi hissi ilə döyünən bütün soydaşlarımızın milli-mənəvi dəyərlərə bağlılığı və Azərbaycanla əlaqələrinin daha da möhkəmləndirilməsi daim dövlətimizin diqqət mərkəzindədir. Ümummilli lider Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq məfkurəsinə əsaslanan ardıcıl tədbirlər xaricdə yaşayan həmvətənlərimizin daha sıx birliyinin təşəkkül tapmasına təkan vermiş, ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı faydalı münasibətlərinin inkişafında diaspor təşkilatlarının rolunu xeyli gücləndirmişdir.

Bu gün Azərbaycan Respublikası böyük iqtisadi, siyasi və mədəni potensiala malikdir. Bu potensial dövrün mürəkkəb çağırışlarına adekvat cavab vermək üçün bizə geniş imkanlar açır. Müstəqil dövlət kimi öz yolunu inamla davam etdirən ölkəmizdə qlobal maliyyə-iqtisadi böhranın təsirləri aradan qaldırılmış, sosial-iqtisadi inkişafın dayanıqlığı və davamlı ictimai-siyasi sabitlik təmin olunmuşdur. Təşəbbüskarı olduğumuz transmilli layihələrin həyata keçirilməsində yüksək nailiyyətlər qazanmışıq. Nəhəng neft şirkətləri ilə «Əsrin müqaviləsi»nin 2050-ci ilə qədər uzadılmasına dair sazişin imzalanması, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Şimal-Cənub nəqliyyat dəhlizinin ölkəmizdən keçən hissəsində işlərin başa çatdırılması respublikamızın tərəqqisi və xalqımızın rifahının yüksəlməsinə xidmət edir, Azərbaycanın dünyadakı geostrateji əhəmiyyətini artırır.

Mədəniyyətlərarası dialoqun təşviqi və ümumbəşəri problemlərin həlli sahəsində dövlətimizin ardıcıl və qətiyyətli mövqeyi beynəlxalq aləmdə rəğbət hissi ilə qarşılanır. 2017-ci ilin ölkəmizdə «İslam Həmrəyliyi İli» elan edilməsi, IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun və IV İslam Həmrəyliyi Oyunlarının uğurla keçirilməsi Azərbaycanın multikulturalizmə və tolerantlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya bir daha nümayiş etdirdi.

Biz Vətənimizin hərtərəfli inkişafı ilə bağlı qarşıya qoyduğumuz məqsədlərə çatmaq üçün əzmlə çalışırıq. Ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsində, qədim və zəngin mədəniyyətinin təbliğində, Azərbaycana qarşı təxribatçı əməllərin qarşısının alınmasında diaspor təşkilatlarının da üzərinə mühüm vəzifələr düşür. Buna görə də xaricdə yaşayan həmvətənlərimiz milli maraqlarımızın müdafiəsi naminə azərbaycançılıq ideyası ətrafında sıx birləşməlidirlər. İnanıram ki, sizin məqsədyönlü və birgə fəaliyyətiniz gücümüzü daha da artıracaq, hamımızı dərindən narahat edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə nizamlanmasına, ölkəmizin ərazi bütövlüyünün bərpasına sanballı töhfəsini verəcəkdir.

Sizə bu yolda möhkəm iradə və mütəşəkkillik, şəxsi həyatınızda səadət və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2017-ci il.*

# Paytaxt Bakıda abadlıq-quruculuq işləri səngimir

Dekabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva «Bakı Ağ Şəhər»də Xaqani Rüstəmov küçəsinin, bu küçənin üzərində yerləşən dairə və dördçıxışlı piyada keçidinin açılışında, yeni salınmış parkın, inşası və abadlığı başa çatan məhəllələrin təqdimat mərasimində iştirak ediblər.



Ulu öndər Heydər Əliyevin xeyir-duası ilə paytaxtdakı «Qara şəhər» öz yerini əzəmətli «Bakı Ağ Şəhər»ə verməkdədir. Prezident İlham Əliyevin diqqəti və qayğısı sayəsində bu mükəmməl layihə reallığa çevrilir, miqyası və keyfiyyətinə görə diqqəti cəlb edir. «Bakı Ağ Şəhər»də böyük həcmdə tikinti-quraşdırma və abadlıq işləri görülüb, neft tullantıları ilə çirklənmiş sahələrin təmizlənməsi yekunlaşıb.

Müxtəlif memarlıq üslublarını, ekoloji məsələləri və «Bakı Ağ Şəhər»in paytaxtın digər hissələri ilə üzvi şəkildə qovuşmasını ehtiva edən layihənin reallaşması sırf peşəkarlara etibar edilib. Burada mükəmməl infrastruktur yaradılır. Yeni yollar, səkilər salınarkən onların ən müasir standartlara maksimum cavab verməsi, əhalinin rahatlığı, təhlükəsizliyi xüsusi diqqət mərkəzində saxlanılır. «Bakı Ağ Şəhər»in tikintisi və burada infrastrukturun yaradılması zamanı dövlətimizin başçısının tapşırıqlarına əsasən kompleks iş aparılır, bütün mövcud tələblər və gələcək inkişaf nəzərə alınır. Yerli şirkətlərlə yanaşı, dünya şöhrətli iqtisadi qurumlar da bu layihəyə cəlb edilib. «Bakı Ağ Şəhər» nəinki respublikamızda, eləcə də beynəlxalq səviyyədə tanınan layihədir. Ötən müddətdə bu layihə beynəlxalq səviyyədə bir sıra yüksək mükafatlara layiq görülüb. Ölkə başçısının tapşırıqlarına uyğun olaraq, «Bakı Ağ Şəhər»də ekoloji problemlərin həlli ən başlıca prioritetlərdən biridir.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva «Bakı Ağ Şəhər»in tikintisi və abadlığı başa çatmış Babək Qərb kvartalında, Mərkəzi Bulvar və Süleyman Vəzirov küçələrinin kəsişməsində yeni salınmış parkla da tanış olublar, sonra ərazidə tikintisi və abadlığı başa çatmış məhəllələrlə tanış olmaq üçün avtobusla gəzintiyə çıxıblar.

Həmin gün dövlətimizin başçısı və birinci xanım Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin ikinci layihəsi olan Hövsan Yaşayış Kompleksində inşa ediləcək ilk yeddimərtəbəli binanın təməlqoyma mərasimində iştirak ediblər.

Kompleksdə çoxmənzilli binalarla yanaşı, insanların rahat yaşayışı üçün zəruri olan hər cür şəraitin yaradılması, geniş həyətlərin, yaşıllıq zonalarının, uşaq meydançalarının, sosial infrastruktur obyektlərinin tikintisi aparılacaq. Ərazidə hər biri 260 yerlik olmaqla iki uşaq bağçasının, 1920 şagird yerlik ümumtəhsil məktəbinin, ticarət mərkəzinin və xəstəxananın istifadəyə verilməsi nəzərdə tutulur.

## BU NÖMRƏMİZDƏ

İKİTƏRƏFLİ ƏMƏKDAŞLIQLA BAĞLI FİKİR MÜBADİLƏSİ APARILIB — 2

«BİR PƏNCƏRƏ» PRİNSİPİNİN TƏTBİQİNİN 10 İLİ TAMAM OLUR — 3

QEYRİ-NEFT MƏHSULLARININ İXRACI 22 FAİZDƏN ÇOX ARTIB — 4

RƏQƏMSAL İQTİSADİYYAT NAĞDSIZ ÖDƏNİŞLƏRİ İNKİŞAF ETDİRƏCƏK — 5

# İkitərəfli əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb



**Dekabrın 22-də vergilər naziri Mikayıl Cabbarov Bakıda səfərdə olan Gürcüstanın maliyyə naziri Mamuka Baxtadzeni qəbul edib**

Görüş zamanı son illər ölkəmizdə bütün sahələrdə əldə olunmuş uğurların əsasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən düşünülmüş iqtisadi siyasətin dayandığını qeyd edən vergilər naziri Mikayıl Cabbarov ölkəmizdə aparılan islahatlar, xarici investorlar üçün yaradılmış şərait, əlverişli biznes mühiti və mövcud vergi siyasəti barədə qonağa ətraflı məlumat verib. Bildirilib ki, hər iki ölkə son illərdə böyük regional layihələrin həyata keçirilməsində birgə əməkdaşlıq edir, Bakı-Tbilisi-Qars dəmir yolu, «Cənub Qaz Dəhlizi» kimi layihələr qlobal miqyasda böyük əhəmiyyət daşımaqla, Azərbaycan və Gürcüstanın iqtisadiyyatına böyük dividendlər gətirir. M.Cabbarov ölkələrimizin vergi xidmətləri arasında əməkdaşlığın və təcrübə mübadiləsinin müsbət nəticələr verdiyini, mövcud əlaqələrin daha da dərinləşdirilməsinin zəruriliyini qeyd edib.

Mamuka Baxtadze ölkələrimiz arasında iqtisadi münasibətlərin yüksələn xətlə inkişaf etdiyini diqqətə çatdıraraq, Gürcüstan iqtisadiyyatı, qonşu ölkədə aparılan islahatlar və həyata keçirilən iqtisadi siyasət barədə məlumat verib, Azərbaycanın onlar üçün vacib tərəfdaş və əsas investor olduğunu vurğulayıb. Gürcüstanlı nazir Azərbaycan iqtisadiyyatının strukturunun təkmilləşdirilməsini, qeyri-neft sektorunun rəqabət qabiliyyətinin və ixrac imkanlarının artırılması istiqamətində hökumətin atdığı addımları yüksək dəyərləndirdiyini, ölkə Prezidenti ilə görüşü zamanı dövlət rəhbərliyinin iqtisadi yeniliklərlə bağlı qətiyyətli mövqeyinin və iradəsinin şahidi olduğunu qeyd edib.

Görüşdə ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olunub. Tərəflər vergilər sahəsində qarşılıqlı dəstək və operativ məlumat mübadiləsi barədə fikir mübadiləsi aparıb, Azərbaycan nümayəndə heyətinin vergilər sahəsində təcrübə mübadiləsi məqsədilə Gürcüstana səfər etməsi barədə razılıq əldə olunub.

# Vətəndaş müraciətlərinə diqqətlə yanaşılır

2017-ci ilin noyabr ayı ərzində vergi orqanlarına 8792 müraciət daxil olub ki, onların da 91%-i ərizə, 8,9%-i şikayət, 0,1%-i təklifdir.

Müraciətlərin 38,7%-i müxtəlif arayışların alınması, 33,7%-i kameral vergi yoxlamaları, 9,6%-i vergi borcları, 2,8%-i vergidən yayınma, nağd hesablaşmaların aparılması qaydalarının pozulması, qanunsuz sahibkarlıq fəaliyyəti, qalanları isə digər məsələlərlə bağlı olub. Bütün müraciətlərə vaxtında baxılıb, 75,7%-i müsbət həll olunub.

Ay ərzində vergi orqanlarında 496 vətəndaş qəbul edilib, onlara qanunvericilik çərçivəsində lazımi köməklik göstərilib və ya müvafiq izahatlar verilib.

# Kiçik və orta sahibkarlığı stimullaşdıran vergi mexanizmləri hazırlanıb

Vergilər Nazirliyində Maliyyə və İqtisadiyyat Nazirliyinin nümayəndələrinin iştirakı ilə «Azərbaycan Respublikasının milli iqtisadiyyatının perspektivləri üzrə Strateji Yol Xəritəsi»nin Tədbirlər Planında nəzərdə tutulmuş səmərəli vergi sisteminin təşviqi sahəsində görülmüş işlər müzakirə olunub.

Tədbirdə çıxış edən Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayeva Vergilər Nazirliyində yaradılmış işçi qrupun 2017-ci il ərzində gördüyü işlər barədə məlumat verərək bildirib ki, nazirliyin icraçısı olduğu Tədbirlər Planında əsas istiqamətlər büdcə-fiskal siyasətin həyata keçirilməsi, kiçik və orta sahibkarlığın inkişafında stimullaşdırıcı vasitələrin tətbiqi, xarici investisiyalı müəssisələrin qeydiyyatının asanlaşdırılması, səmərəli vergi sisteminin təşviqi, xarici investisiyalı müəssisələrin qeydiyyatı strategiyasının həyata keçirilməsi kimi məsələləri əhatə edir. Qeyd olunub ki, 2017-ci ildə Vergilər Nazirliyi tərəfindən «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»nin Tədbirlər Planının 1.5.2-ci yarımbəndində nəzərdə tutulmuş «Yoxlamaların optimallaşdırılması və risk dərəcəsi əsasında aparılması», həmçinin 1.5.3-cü yarımbəndinə aid «KOS sahəsində stimullaşdırıcı vergi islahatlarının davam etdirilməsi» tədbirləri üzrə işçi qruplar yaradılıb və onların illik iş proqramı hazırlanaraq Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim olunub. KOS subyektlərinin fəaliyyətində yoxlama və lisenziyalaşdırma mexanizmləri təkmilləşdirilib, yoxlamaların təşkili və aparılması məqsədilə sahibkarlar yüksək, orta və aşağı risk qruplarına bölünüb. Yoxlamaların optimallaşdırılması və risk dərəcəsi əsasında aparılması tədbiri üzrə «KOS» kateqoriyasına aid olan vergi ödəyicilərinin elektron informasiya sistemlərində fərqləndirilməsi üçün «iri, orta və kiçik sahibkar meyarları» nəzərə alınmaqla «KOS» abbreviaturasının strukturu və elektron informasiya sistemlərində əks etdirilməsi ilə bağlı layihə hazırlanıb.

Tədbirlər Planında nəzərdə tutulmuş digər istiqamətlərə uyğun olaraq, KOS sahəsində operativ vergi nəzarəti tədbirlərinin, səyyar və kameral vergi yoxlamalarının yalnız risk meyarları əsasında aparılmasını təmin edən mexanizmlər müəyyənləşdirilib. Bundan başqa, hüquqi şəxslərin dövlət qeydiyyatının asanlaşdırılması, xarici investisiyalı müəssisələrin elektron qeydiyyatı ilə bağlı qanunvericilikdə dəyişikliklərin edilməsi, yeni qeydiyyatdan keçən vergi ödəyicilərinin fəaliyyət istiqamətləri üzrə məlumatlandırma mexanizmlərinin işlənib hazırlanması üzrə layihələr də hökumətə təqdim olunub.



S.Musayeva bildirib ki, vergi güzəştlərinin və azadolmalarının monitorinqinin aparılması, onların səmərəliliyinin müəyyən edilməsi, vergi qanunvericiliyində müvafiq dəyişikliklər olunması, vahid ödəniş kartları üzrə aparılan əməliyyatlar barədə məlumatların vergi orqanı tərəfindən əldə edilməsi və vergitutma məqsədilə istifadə olunması, sabit qəbz alan ödəyicilərin əhatə dairəsinin genişləndirilməsi ilə əlaqədar layihələr hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilib. Bildirilib ki, 2018-ci ildə azad rəqabət mühitinin inkişaf etdirilməsi, səmərəli vergi sisteminin təşviqi, KOS sahəsində stimullaşdırıcı vergi islahatları üzrə əlavə tədbirlərin görülməsi nəzərdə tutulur.

**ELBRUS**

# Qaimə-fakturalar elektronlaşdırılır

## 2018-ci ildən bütün vergi ödəyiciləri malların (işlərin, xidmətlərin) təqdim olunması zamanı elektron qaimə-faktura təqdim etməlidirlər

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 mart 2017-ci il tarixli 89 nömrəli Qərarı ilə təsdiq edilmiş «Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları»na əsasən, ƏDV ödəyiciləri və ardıcıl 12 aylıq dövr üzrə vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər təqdim etdikləri mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il aprelin 1-dən, bütün digər vergi ödəyiciləri isə 2018-ci il yanvarın 1-dən malların, işlərin və xidmətlərin alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara elektron qaimə-faktura təqdim etməlidirlər.

Vergi Məcəlləsinin 71-1-ci maddəsinə əsasən, bu Məcəllə ilə müəyyən edilmiş hallarda fərdi sahibkarlara və hüquqi şəxslərə malları təqdim edən, işləri görən və xidmətləri göstərən şəxs onlara elektron qaimə-faktura verir. Vergi ödəyicisi kimi vergi orqanlarında uçota alınmamış şəxslərin elektron qaimə-faktura vermək hüququ yoxdur. 2017-ci ilin aprel ayının 1-dən indiyədək 7841 əlavə dəyər vergisi ödəyicisi tərəfindən 4.479.153 elektron qaimə-faktura təqdim olunub və bu əməliyyatların ümumi dəyəri 23 milyard 520,7 milyon manatdan artıqdır.

2018-ci ilin əvvəlindən elektron qaimənin bütün vergi ödəyiciləri üzrə tətbiqindən sonra, əlavə dəyər vergisində olduğu kimi, digər vergi növləri üzrə də malların satış dövriyyəsi tam şəkildə elektron qaydada nizamlanacaq və prosesə vergi orqanları tərəfindən nəzarət ediləcək. Elektron qaimə-fakturaları vergi ödəyiciləri iki üsulla hazırlaya bilirlər: «Onlayn rejimdə» - vergi ödəyicisi İnternet Vergi İdarəsinin «e-Qaimə» altbölməsinə daxil olur və «onlayn» rejimdə elektron qaimə-fakturasını tərtib edərək, digər vergi ödəyicisinə təqdim edir. «Oflayn» rejimdə - vergi ödəyicisi elektron qaimə-fakturasını tərtib etmək üçün hazırlanmış xüsusi proqram təminatını və digər zəruri proqramları «İnternet Vergi İdarəsi»ndən öz kompüterinə yükləyir, qaimə-fakturaları bu proqram vasitəsilə internetdən istifadə etmədən hazırlayır və həmin faylı proqram vasitəsilə imzalayaraq sistemə yükləyir. Qeyd edək ki, bu barədə İnternet vergi idarəsində yerləşdirilmiş «Elektron qaimə-fakturanın istifadəçi təlimatı»nda da ətraflı məlumat verilib.

Elektron qaimənin tətbiqinin vergi orqanları və vergi ödəyiciləri üçün bir sıra üstünlükləri var. Bu sistem inzibatçılıq xərclərinin azaldılmasında, məlumat mübadiləsinin çevikliyinin artırılmasında və aparılan əməliyyatlarda şəffaflıq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır, digər üstünlüyü isə mətbəə xərclərinin və vaxt itkisinin azaldılmasıdır. E-qaimə sisteminin tətbiqi nəticəsində heç bir mətbəəyə müraciət olunmadan və əlavə vaxt itkisinə yol vermədən birbaşa internet vasitəsilə real vaxt rejimində elektron qaimə-fakturanı hazırlayıb malın (işin, xidmətin) alıcısına təqdim etmək mümkündür.

Elektron qaimə-faktura sahibkarlar arasında aparılan əməliyyatların rəsmiləşdirilməsi prosedurunun sadələşməsinə, operativliyin təmin edilməsinə, inzibatçılıq xərclərinin azaldılmasına, sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaqla gələcəkdə vergi orqanları ilə yaranacaq fikir ayrılıqlarının qarşısının alınmasına və şəffaflığın təmin edilməsinə xidmət edir. Sahibkarların bir-birlərinə təqdim etdikləri mallara görə qaimələrin elektron qaydada təqdim olunması vahid elektron baza formalaşdırır və bu, sahibkarlar arasındakı münasibətlərin hüquqi şəkildə tənzimlənməsinə şərait yaradır.

> “Elektron qaimə-faktura sahibkarlar arasında aparılan əməliyyatların rəsmiləşdirilməsi prosedurunun sadələşməsinə, operativliyin təmin edilməsinə, inzibatçılıq xərclərinin azaldılmasına, sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaqla gələcəkdə vergi orqanları ilə yaranacaq fikir ayrılıqlarının qarşısının alınmasına və şəffaflığın təmin edilməsinə xidmət edir

# Məktəblilər üçün fərqli bayram hədiyyəsi



Vergilər Nazirliyinin valideyn himayəsindən məhrum olan, eləcə də dərslərində yüksək nəticələr əldə edən məktəblilərə Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə bağlı hədiyyəsi bu il xeyli fərqli oldu: uşaqlar Akademik Milli Dram Teatrında «Rəqs edən pinqvinlər» tamaşasına baxdılar. Tamaşadan sonra «Şaxta baba və «Qar qız»ın şənliyə qatılması uşaqların əhvalına əlavə rəng qatdı, balaca fidanlar doyunca şənləndilər, aldıqları hədiyyələr ürəklərincə oldu.

Tədbirin sonunda vergilər nazirinin müşaviri Elçin Məmmədov uşaqları qarşıdan gələn əziz bayramlar münasibətilə təbrik edərək bildirdi ki, Vergilər Nazirliyi sosial məsuliyyət strategiyası çərçivəsində ictimaiyyət nümayəndələri üçün faydalı təşəbbüslərin dəstəklənməsinə daim diqqətlə yanaşır və sosial layihələrin həyata keçirilməsində fəal tərəfdaş kimi iştirak edir: «Bu cür şənliklərin təşkilində məqsəd valideyn himayəsindən məhrum olmuş və qayğıya daha çox ehtiyacı olan məktəblilərin cəmiyyətə inteqrasiyasına dəstək vermək, eləcə də dərslərində yüksək nəticələr əldə edən şagirdlərin təhsilə marağını stimullaşdırmaqdır. Vergilər Nazirliyi sosial məsuliyyət strategiyası çərçivəsində cəmiyyətin maarifləndirilməsinə öz töhfəsini verir və maraqlı tərəflərlə davamlı inkişafa yönələn sosial layihələri dəstəkləyir. Nazirlik gələcəyin vergi ödəyicilərinin hazırlanması üçün müxtəlif səpkili layihələr həyata keçirir. Hər il 1 İyun - Uşaqları Beynəlxalq Müdafiə Günündə «Vergilər uşaqların gözü ilə» rəsm və inşa müsabiqəsi, eləcə də şəhər və rayonların orta məktəbləri və uşaq-gənclər yaradıcılıq mərkəzləri ilə birgə müxtəlif tədbirlər təşkil olunur».

**Fəxriyyə İKRAMQIZI**

# İxrac missiyaları özünü doğruldur

## 2017-ci ildə qeyri-neft məhsullarının ixracının stimullaşdırılması və tərəfdaş şirkətlərlə əlaqələrin qurulması istiqamətində mühüm addımlar atılıb

**Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) vitse-prezidenti Yusif Abdullayev bildirib ki, «Made in Azerbaijan» brendinin təşviqi üçün ixrac missiyalarının təşkili mühüm fayda verməkdədir. Missiya çərçivəsində keçirilən görüşlərdə xarici investorlara və ticarət tərəfdaşlarımıza ölkəmizin qeyri-neft istehsalının potensial vəziyyəti, ixrac olunan məhsullar barədə ətraflı məlumatlar çatdırılır.**

İxrac missiyaları zamanı Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Səudiyyə Ərəbistanı, Çin və digər ölkələrdə yerli məhsullarımızın tanıdılması öz faydasını verib və qarşı tərəflə əməkdaşlıq sazişləri imzalanıb. Azərbaycanın «Brightman BMC» şirkəti konservləşdirilmiş məhsulların BƏƏ ölkələrinə və Banqladeşə ixracına dair «Al-maya» və «Lulu» marketlər şəbəkələri və «Al-Ghamdi» trading şirkəti ilə ilkin razılıq əldə edib. «Sunfood» şirkəti nar şirəsinin və çayın, «Səba» ət məhsullarının, «Kerkom» və «Azəri-bal» şirkətləri isə balın BƏƏ-yə ixracına dair «Al-maya», «Lulu», «Al-Qudva» marketlər şəbəkələri ilə danışıqlara başlayıblar. «Az-Granata» şirkəti nar şirəsinin Dubaya ixracına dair ilkin razılığa gəlib. Bundan başqa, Azərbaycanın «Azprotein» şirkəti BƏƏ-nin «Al-Tayeb» pərakəndə və topdansatış distribütör şirkəti və «Choitrams» marketlər şəbəkəsi ilə ət məhsullarının BƏƏ və digər Körfəz ölkələrinə ixracına dair razılıq əldə edib. Səudiyyə Ərəbistanına ixrac missiyası zamanı bal, ət və süd məhsullarının alğı-satqısı barədə razılıq əldə olunub.

Y.Abdullayev «Made in Azerbaijan» brendinin təşviqi ilə bağlı 2018-ci ildə nəzərdə tutulan tədbirlərdən bəhs edərkən bildirib ki, gələn ilin fevralında Berlin, Moskva və Dubay şəhərlərinə, mayda isə Çinə ixrac missiyaları təşkil ediləcək. Berlində təşkil olunacaq tədbirdə vahid ölkə stendi ilə Azərbaycandan 10 şirkət təmsil olunacaq.

Qeyd edək ki, ixrac məhsullarının çeşidi və coğrafiyasının şaxələndirilməsi, «Made in Azerbaijan» brendinin xarici bazarlarda təşviqi ilə yanaşı, ixracyönümlü istehsala əlavə güzəştlər verilir. Yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentin almasına, ixrac layihələrinin hazırlanmasına çəkilən xərclər dövlət büdcəsi hesabına ödənilir. Beynəlxalq sərgi və ya yarmarkalarda «Made in Azerbaijan» brendini təşviq edən xərclərin 30%-i dövlət tərəfindən qarşılanır. Stimullaşdırma işlərinə əlverişli maliyyə şərtləri, logistika, infrastrukturun yaxşılaşdırılması, xarici bazarlara çıxış üçün yardım daxildir. Bununla yanaşı, milli ixracın stimullaşdırılması məqsədilə sahibkarlıq subyektlərinin idxal və ixrac əməliyyatında tələb olunan sənəd və prosedurların sayının azaldılması, ixracdakı hesablamaların sadələşdirilməsi, ixracatçılar üçün daha münasib şəraitin yaradılması əsas məqsədlərdəndir.

İxracın təşviqi məqsədilə AZPROMO-nun «İxraca hazır ol» layihəsi çərçivəsində sahibkarların maarifləndirilməsi, onların nəzəri və praktiki biliklərinin səviyyəsinin yüksəldilməsi, ixrac sahəsində Avropa təcrübəsinin artırılması nəzərdə tutulur. Birgə layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə ixraca dair sertifikatlaşdırma, elektron ixracla bağlı təlimlərin keçirilməsi, bazar tədqiqatlarının aparılması, məlumat mübadiləsi və digər tədbirlər həyata keçiriləcək.

> Gələn ilin fevralında Berlində təşkil ediləcək tədbirdə vahid ölkə stendi ilə Azərbaycandan 10 şirkət təmsil olunacaq

**E. CƏFƏRLİ**

# «Bir pəncərə» prinsipinin tətbiqinin 10 ili tamam olur

**Prezident İlham Əliyevin sahibkarlığın inkişafının sürətləndirilməsi, biznes mühitinin əlverişliliyinin daha da artırılması və biznesə başlama prosedurlarının sadələşdirilməsi məqsədilə imzaladığı 2007-ci il 25 oktyabr tarixli sərəncam, eləcə də 2007-ci il 28 dekabr tarixli «Sahibkarlıq fəaliyyəti subyektlərinin dövlət qeydiyyatının «bir pəncərə» prinsipinə uyğun təşkili ilə əlaqədar ölkə başçısının bəzi fərmanlarına dəyişikliklər və əlavələr edilməsi barədə» fərmanla Azərbaycanda sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin «bir pəncərə» prinsipi üzrə qeydiyyatının tətbiqi üçün hüquqi baza və mexanizmlər müəyyənləşdi. Vergilər Nazirliyi sahibkarlıq fəaliyyəti subyektlərinin vahid dövlət qeydiyyatı orqanı müəyyən edildi. Bundan əlavə, Nazirlər Kabinetinin qərarı ilə Ədliyyə, İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinə, Dövlət Sosial Müdafiə Fondu və Dövlət Statistika Komitəsinə birlikdə «bir pəncərə» prinsipi üzrə sahibkarlıq fəaliyyəti subyektləri üçün vahid kodun qəbulunun təmin olunması tapşırıldı.**



### Yeni sistem nəyi dəyişdi?

«Bir pəncərə» sisteminin tətbiqində məqsəd kommersiya qurumlarının dövlət qeydiyyatı prosesində iştirak edən dövlət qurumları arasında asan məlumat mübadiləsinin təmin edilməsini həyata keçirmək idi. Layihə «Elektron hökumət» quruculuğu yolunda əsas elementlərdən biri idi.

Vergilər Nazirliyi dövlət başçısının qarşıya qoyduğu tapşırıqların icrası məqsədilə həm qanunvericilik bazasının təkmilləşdirilməsi, həm də dövlət qeydiyyatının texniki təminatı sahəsində mühüm addımlar atdı. 2008-ci il yanvarın 15-də nazirlik tərəfindən «bir pəncərə» ilə bağlı təqdimatın keçirilməsi ilə bu layihəyə start verildi. Yeni layihəyə əsasən, hüquqi şəxsin bir müraciəti əsasında dövlət qurumlarından Vergilər Nazirliyi vasitəsilə lazımi arayışlar və digər məlumatlar toplanaraq tez bir zamanda kommersiya qurumlarının qeydiyyatına şərait yaradıldı. Müqayisə üçün qeyd edək ki, «bir pəncərə» prinsipi tətbiq olunmazdan əvvəl hüquqi şəxsin qeydiyyatı üçün iki aya yaxın vaxt lazım idi. Sahibkar fəaliyyətə başlamaq üçün 13 prosedurdan keçməli, müxtəlif strukturlara eyni tipli sənədləri təqdim etməli idi.

Dövlət qeydiyyatının «bir pəncərə» prinsipi ilə elektron qaydada həyata keçirilməsi bu sahədə köklü dəyişikliklərə səbəb oldu, sahibkarların işini əhəmiyyətli dərəcədə asanlaşdırdı, bürokratik maneələri aradan qaldırdı. Biznesə başlamaq üçün qeydiyyat prosedurlarının sayı 6-dək, tələb olunan vaxt 8 günədək, o cümlədən qeydiyyat üçün lazım olan vaxt 3 günədək, təqdim olunan sənədlərin sayı isə 5 dəfə azaldıldı. «Bir pəncərə» sisteminin tətbiqinədək müxtəlif dövlət qurumları tərəfindən aparılan çoxpilləli qeydiyyat prosesində 500-dən artıq dövlət qulluqçusu iştirak edirdisə, hazırda bu, cəmi 85 əməkdaş tərəfindən yerinə yetirilir.

### Əldə olunan nəticələr

Sahibkarlıq subyektlərinin qeydiyyatında həyata keçirilən yeni mütərəqqi islahatlar nəticəsində onların qeydiyyatının dinamikasında müsbət dəyişikliklər müşahidə olunub, hər il sahibkarlıq subyektlərinin sayında artım qeydə alınıb. 2010-cu ildə 4296, 2011-ci ildə 5137, 2012-ci ildə 5417, 2013-cü ildə 7879, 2014-cü ildə 9130, 2015-ci ildə 6266, 2016-cı il isə 6700 hüquqi şəxs qeydiyyata alınıb. 2017-ci ilin yanvar-oktyabr ayları ərzində ölkə üzrə 134.566 vergi ödəyicisi qeydiyyata alınıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 28.961 vergi ödəyicisi və ya 27,4% çoxdur. Qeydiyyata alınanlardan 9864-ü hüquqi, 124.702-i fiziki şəxslərdir. Hüquqi şəxslərin qeydiyyatında artım 48% təşkil edir. Ümumilikdə isə son 10 ilə yaxın müddət ərzində ölkə üzrə qeydiyyata alınmış hüquqi şəxslərin sayı 110 mindən artıq olub. Hüquqi şəxslərin 2008-ci ildə 93,7%-i, 2009-cu ildə 93,5%-i, 2010-cu ildə 91,7%-i, 2011-ci ildə 91,5%-i, 2012-ci ildə 92,9%-i, 2013-cü ildə 93,6%-i, 2014-cü ildə 92,2%-i, 2015-ci ildə 93,1%-i, 2016-cı ildə 96%-i, bu ilin 11 ayı ərzində isə 97,3%-i məhdud məsuliyyətli cəmiyyət (MMC) təşkilati-hüquqi formasında yaradılıb.




Biznes sahəsində aparılan islahatların növbəti mərhələsi kimi e-qeydiyyat sisteminin tətbiqi sahibkarlığın inkişafında yeni mərhələ açıb. Azərbaycanda yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron dövlət qeydiyyatı 2012-ci ildən tətbiq olunur. Bu gün ölkəmizdə kommersiya qurumlarının, o cümlədən xarici kommersiya hüquqi şəxslərin nümayəndəlik və filialının dövlət qeydiyyatı iki gün, yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatı dərhal, adi elektron dövlət qeydiyyatı zamanı isə bir gün ərzində aparılır. Vergi Məcəlləsinə edilmiş dəyişiklik nəticəsində 2017-ci ildən başlayaraq, fərdi sahibkarların da vergi uçotuna alınması bir gün ərzində həyata keçirilir.

Təkcə cari ilin əvvəlindən 5785 yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin qeydiyyatı elektron qaydada aparılıb. Hüquqi şəxslərin elektron qeydiyyatının xüsusi çəkisi son bir ildə 55,1%-dən 69,3%-dək artıb.

Azərbaycanda biznesin qeydiyyatı prosedurlarının asanlaşması xarici investorların da ölkəmizdə fəaliyyətini stimullaşdırıb. Xarici investisiyalı müəssisələrin qeydiyyatında nəzərəçarpan dinamika özünü göstərir. Hüquqi şəxslərin dövlət qeydiyyatının «bir pəncərə» prinsipi ilə qeydiyyata alındığı on il ərzində dövlət qeydiyyatına alınmış 36.254 hüquqi şəxsdən 5470-i xarici investisiyalı müəssisədir ki, bu da cəmi qeydiyyata alınan müəssisələrin 15,1%-ni təşkil edir. Son 11 ay ərzində qeydiyyata alınmış 558 xarici investisiyalı müəssisədən 147-si (26,3%) Türkiyə Respublikasının, 81-i (14,5%) İran İslam Respublikasının, 52-si (9,3%) Pakistan İslam Respublikasının, 39-u (7%) Rusiya Federasiyasının, 29-u (5,2%) Hindistanın, 25-i (4,5%) Ukraynanın, 25-i (4,5%) Gürcüstanın, 160-ı isə (29%) digər ölkələrin investorlarıdır.

### Vergilər Nazirliyinin Çağrı Mərkəzi

Vergi qanunvericiliyinin təkmilləşdirilməsi üzrə strateji planın əsas prioritetlərinə vaxt itkisinə yol vermədən biznesin bir mənbədən qeydiyyata alınması, lisenziyalaşdırma, mühasibat uçotu, vergilər, rüsumlar, sosial və digər icbari ödənişlər barədə məlumat almaq imkanının yaradılması, vergi qanunvericiliyinin pozulması halları barədə müraciətlərin qəbul edilməsi daxil idi. Bu məqsədlə 2003-cü ildə nazirliyin «195» Çağrı Mərkəzi istifadəyə verildi. Mərkəz ilk dövrlər Bakı şəhərini əhatə etsə də, 2006-cı ilin may ayından onun əhatə dairəsi genişləndirilərək respublikanın bütün regionlarından sual və müraciətlərin qəbul edilməsini həyata keçirdi.

Çağrı Mərkəzi dövlət-vətəndaş münasibətlərinin müasir müstəvidə qurulmasında ən yaxşı platformalardan biri kimi qəbul olundu. Dövlət başçısının imzaladığı 11 avqust 2010-cu il tarixli sərəncamla təsdiq edilmiş «Elektron Azərbaycan» Dövlət Proqramında sahibkarlıq fəaliyyəti sahəsində digər tədbirlərlə yanaşı, universal Çağrı Mərkəzinin yaradılması barədə hökumətə tapşırıqlar verildi. Nazirlər Kabinetinin 28 oktyabr 2013-cü il tarixli sərəncamı ilə universal Çağrı Mərkəzi layihəsinə 2015-ci ilin fevral ayından Maliyyə, Ədliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Dövlət Gömrük Komitəsi və Dövlət Sosial Müdafiə Fondu da inteqrasiya edildi və 195 nömrəsi vasitəsilə xidmətlər göstərilməyə başlandı. 2011-ci ildə Beynəlxalq Sertifikatlaşdırma və Sorğu Mərkəzləri İnstitutu tərəfindən keçirilmiş auditin nəticəsinə əsasən, Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Çağrı Mərkəzinə Standartlaşma üzrə Avropa Komissiyası tərəfindən keyfiyyət sertifikatı təqdim olundu.

### «ASAN imza»

«Bir pəncərə»nin ardınca vergi ödəyiciləri üçün digər səmərəli tədbirlərə də start verildi. 2009-cu ildə vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsi üzrə yeni Strateji Planın icrasına başlanıldı, ƏDV depozit hesabının tətbiqi biznesin səmərəliliyinin yaxşılaşmasına imkan yaratdı. 2010-cu ildə «Elektron hökumət»in tətbiqi prosesinin əsaslı surətdə genişləndirilməsi, elektron vergi hesab-fakturalarının tətbiqi ilə bağlı əhəmiyyətli tədbirlər həyata keçirildi.

2011-ci ildə Vergilər Nazirliyi elektron xidmətlərin çeşidini genişləndirərək fiziki şəxslərin elektron qeydiyyatına start verdi. 2012-ci ildə isə biznesin qeydiyyata alınması sahəsində irəliyə doğru ciddi addım atıldı - hüquqi şəxslərin elektron qeydiyyatına başlanıldı. 2013-cü ilin may ayının 2-də təqdimatı keçirilən Vergilər Nazirliyinin elektron imza üzrə Sertifikat Xidmətləri Mərkəzinin istifadəyə verilməsi ilə sahibkarlıq sahəsində ən uğurlu layihələrdən biri - «mobil hökumətin» açarı hesab edilən «ASAN imza»nın tətbiqinə start verildi. Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) ilə sıx inteqrasiya olunmaqla bütün mövcud kompüter əməliyyat sistemlərini və mobil qurğuları dəstəkləyən Mərkəz elektron imzaların Avropa ölkələri ilə qarşılıqlı tanınmasına imkan verdi. Bu, həm də Azərbaycan sahibkarlarının digər ölkə vətəndaşları ilə birgə şirkət qurmalarına və müqavilələrin elektron formada internet üzərindən imzalanmasına şərait yaratdı. Artıq Azərbaycanın «ASAN imza»sı beynəlxalq miqyasda da tanınır. 2014-cü ildə Avropa Parlamentində «Azərbaycanda innovasiyalar və mobil identifikasiya: Avropaya rəqəmsal inteqrasiyanın yeni növü» adlı konfransında Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi ilə Estoniya Sertifikat Mərkəzi arasında saziş imzalandı. Bununla da «ASAN imza» layihəsi Azərbaycan və Avropa İttifaqı arasında daha effektli əlaqələrin qurulmasına imkan yaratdı.

Onu da qeyd etmək yerinə düşər ki, 2014-cü ildən yerli vergi ödənişləri sisteminin təkmilləşdirilməsi məqsədilə Azərbaycan bələdiyyələrində elektron vergi ödənişlərinin tətbiqi ilə bağlı pilot layihə həyata keçirilir.

### E-xidmətlər üzrə öndə gedən dövlət qurumu

Bu gün Vergilər Nazirliyi mərkəzi icra hakimiyyəti orqanları arasında ən çox elektron xidmət göstərən dövlət orqanı kimi fəaliyyət göstərir. Qeydiyyat sahəsində bir çox xidmətləri, o cümlədən ilkin qeydiyyatı tam elektronlaşdıran nazirlik tərəfindən qabaqcıl beynəlxalq təcrübəyə əsaslanan xidmət kanalları yaradılıb, yeni layihələr tətbiq edilməklə elektron xidmətlər genişləndirilib. Nazirliyin rəsmi internet səhifəsində ayrıca «Elektron xidmətlər» bölməsi yaradılıb, göstərilən bütün elektron xidmətlər, onların inzibati reqlamentləri, istifadə təlimatları, o cümlədən videotəlimatlar burada yerləşdirilib. E-xidmətlərin sayəsində vətəndaşlar əlavə vaxt itkisindən və xərclərdən azad olunublar.

Qeydiyyatla bağlı inzibati reqlamentlər, ərizə formaları və onların doldurulma qaydaları, təşkilati-hüquqi formasından asılı olaraq kommersiya qurumlarının nizamnamə, qərar formaları və s. hazırlanıb, hər kəsin istifadə etməsi üçün Vergilər Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilib. Sahibkarların kommersiya hüquqi şəxs yaratmaq üçün hazırladıqları hüquqi sənədlərin qeydiyyat orqanına gəlmədən yoxlanılması üçün saytda idarənin hüquqşünaslarının elektron ünvanları yerləşdirilib. Bundan başqa, vergi əməkdaşları iş günü ərzində xidməti telefon və elektron poçt vasitəsilə müraciət etmiş şəxsləri maraqlandıran bütün suallara ətraflı cavab verirlər.

> **Vergi Məcəlləsinə edilmiş dəyişiklik nəticəsində 2017-ci ildən başlayaraq, fərdi sahibkarların da vergi uçotuna alınması bir gün ərzində həyata keçirilir**

### Qarşıda duran əsas hədəflər

Azərbaycan Prezidentinin «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında» 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş strateji yol xəritələri çərçivəsində Vergilər Nazirliyi üzrə nəzərdə tutulmuş layihələrdən biri də yerli investisiyalı kommersiya hüquqi şəxslərin məlumat dəyişikliyinin elektron qaydada həyata keçirilməsi ilə bağlı qanunvericilikdə dəyişikliklərin edilməsi və məlumat dəyişikliyi prosedurunun sadələşdirilməsi üzrə layihənin tətbiqidir. Layihə üzrə zəruri işlər yerinə yetirilməkdədir. Diqqət mərkəzində saxlanılan məsələlərdən biri dövlət qeydiyyatı sahəsində işlərin daim təkmilləşdirilməsi, vergi ödəyicilərinin işinin daha da asanlaşdırılmasıdır. Dövlət başçısının «Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında» fərmanının icrası məqsədilə «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» qanun layihəsi hazırlanıb. Hazırda kommersiya hüquqi şəxslərin onlayn qeydiyyatı yalnız yerli investisiyalı hüquqi şəxslər üçün mümkündür. «Rəqəmsal Ticarət Qovşağı» ilə bağlı layihənin tətbiqi isə xarici investisiyalı hüquqi şəxslərin də onlayn qeydiyyatının aparılmasına imkan verir. Bu addım kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatının tamamilə elektron qaydada aparılmasına şərait yaradacaq. Nəzərə alsaq ki, kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı elektron qaydada 1 gün, kağız daşıyıcıda isə 2 gün ərzində həyata keçirilir, bu layihə reallaşandan - qeydiyyat tam elektronlaşandan sonra qeydiyyat prosesinin müddətinin daha da azalmasına nail olunacaqdır. Bu isə beynəlxalq hesabatlarda və reytinq sıralamalarında Azərbaycanın mövqeyinin daha da irəliləməsinə təkan verəcək.




### Vergi islahatları ilə bağlı Azərbaycanın beynəlxalq hesabatlarda mövqeyi

«Bir pəncərə» sisteminin tətbiqi yerli və əcnəbi sahibkarlarla yanaşı, beynəlxalq ictimaiyyətin də müsbət reaksiyası ilə qarşılandı. Prosedurun şəffaflığı və operativliyi Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası və digər mötəbər təşkilatlar tərəfindən yüksək qiymətləndirildi və Azərbaycanın iqtisadi reytinqinə müsbət təsir göstərdi. Beynəlxalq Maliyyə Korporasiyası «bir pəncərə» prinsipi ilə qeydiyyatın aparılmasını mütərəqqi dünya təcrübəsi kimi qiymətləndirdi, bunun Azərbaycanda tətbiqinin biznes mühitinin yaxşılaşdırılmasına yönəlmiş mühüm addım olduğunu bəyan etdi. Dünya Bankının «Doing Business-2009» hesabatında Azərbaycan ən islahatçı ölkə kimi tanındı, ölkəmizdə müasir texnologiyaların və mütərəqqi beynəlxalq təcrübənin tətbiqi sayəsində vergi inzibatçılığının təkmilləşdirilməsi, biznesin fəaliyyətinin yaxşılaşmasına təkan verən mütərəqqi islahatların aparılması nüfuzlu beynəlxalq təşkilatların növbəti hesabatlarında da yüksək qiymətləndirildi. «Standard & Poor's», «Moody's Investors Servises», «Fitch» və s. kimi beynəlxalq reytinq agentlikləri Azərbaycanda biznesə başlama prosedurlarının sadələşdirildiyini, vergilərin ödənişi sahəsində elektron xidmətlərin genişləndiyini qeyd etdilər.

Dünya Bankının 190 ölkənin biznes mühitini qiymətləndirən «Doing Business-2018» hesabatında Azərbaycan biznesin qeydiyyatı ilə bağlı ən yaxşı islahatçı ölkələrdən biri kimi qiymətləndirilib. Hesabatdakı indekslərdən ikisi: «Biznesə başlama» (Starting business) və «Vergilərin ödənilməsi» (Paying taxes) birbaşa vergi məsələlərinə aiddir. Azərbaycan «Biznesə başlama» indeksi üzrə üzrə 18-ci yerdə, «Vergilərin ödənilməsi» üzrə indeksi üzrə 35-ci yerdə qərarlaşıb. «Biznesə başlama» reytinqi sahibkarın biznesə başlaması üçün təcrübədə tələb olunan inzibati prosedurların sayını, sərf olunan vaxt və xərclərin miqdarını, həmçinin ödənilmiş minimum kapitalın həcmini ifadə edir. Bu il hesabatda əlavə prosedur olaraq işçilərlə bağlanmış əmək müqavilələri qeyd edilib ki, bu prosedur da ölkəmizdə elektronlaşdırılıb. Biznesə başlamaq istəyən hər bir vətəndaşın elektron imzadan istifadə etməklə işçisi ilə bağladığı əmək müqaviləsini «Elektron hökumət» portalı üzərindən rəsmiləşdirmək imkanı var. Ölkəmizdə sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı sahəsində həyata keçirilmiş tədbirlər nəticəsində biznesə başlama prosedurları əsaslı surətdə sadələşdirilib. Fərdi sahibkarların və yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin qeydiyyatı elektron üsulla aparılır. Fiziki şəxslərin elektron formada dərhal vergi uçotuna alınması təmin edilib, kommersiya hüquqi şəxslərin «e-qeydiyyat» sisteminin tətbiqi dövlət qeydiyyatı ərəfəsində yerinə yetirilməli olan məcburi prosedurlara və ümumilikdə qeydiyyatın aparılmasına sərf edilən müddəti xeyli azaldıb. Vergi Məcəlləsində edilən bir sıra mühüm dəyişikliklərin qüvvəyə minməsi, o cümlədən vergi partnyorluğu sazişinin tətbiqinə başlanılması ölkədə vergi mühitinin liberallaşmasına müsbət təsir göstərib. «Biznesə başlama» göstəricisi üzrə kommersiya hüquqi şəxslərin qeydiyyatı üçün yerinə yetirilməli olan prosedurların sayı 2-yə endirilib. Bunun üçün sərf edilən müddət 3 gün, tələb olunan məbləğ isə 72 manatdır. Burada onlayn qeydiyyat üçün elektron imzanın alınması üzrə 1 gün, onlayn qeydiyyatdan keçmə üzrə isə (VÖEN və ƏDV qeydiyyatı daxil) 2 gün gözləmək lazım gəlir. «Biznesə başlama» göstəricisi xarici investisiya və yeni texnologiyaların axını üçün stimullaşdırıcı təsir göstərən amil kimi dəyərləndirilir. Bu, həmçinin, xarici investisiyalar və yeni texnologiyaların axınına stimullaşdırıcı təsir edən amil kimi dəyərləndirilir və ölkədə əlverişli sərmayə mühitinin təşəkkülünə təkan verir. Azərbaycanın nüfuzlu beynəlxalq hesabatda həmin indeks üzrə 18-ci yerdə olması ölkənin azad biznesə açıq olduğunu nümayiş etdirir ki, bunun da xarici investisiyalar üçün böyük əhəmiyyəti vardır.

**Elbrus CƏFƏRLİ**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Vergi güzəşti

***II qrup əlil kimi muzdlu işlə əlaqədar əldə etdiyim gəlirlərə hansı vergi güzəşti tətbiq olunur?***

Vergi Məcəlləsinin 102.3-cü maddəsinə uyğun olaraq, I və II qrup əlillərin (müharibə əlillərindən başqa), sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 200 manat məbləğində azaldılır.

Vergi Məcəlləsinin 102.8-ci maddəsinə görə, əməkhaqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin bu maddədə sadalanan vergi güzəştləri hüququ Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilmiş sənədlərin təqdim edildiyi andan yaranır və yalnız fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) həyata keçirilir.

Nazirlər Kabinetinin 4 yanvar 2001-ci il tarixli, 4 nömrəli Qərarı ilə təsdiq edilmiş «Əməkhaqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı»nın 1.9-cu bəndində qeyd edilmişdir ki, I və II qrup əlillərin (müharibə əlillərindən başqa) güzəşt hüququ Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun şəhər, rayon şöbəsinin arayışı və tibbi-sosial ekspert komissiyasının rəyi və ya arayışı əsasında müəyyənləşdirilir.

**Qeyd olunan müddəalara əsasən:**

II qrup əlil olan şəxs tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilmiş sənədlər əsas iş yerinə (əmək kitabçasının olduğu yerə) təqdim edildiyi andan onun muzdu işlə əlaqədar aldığı gəlirləri 200 manat məbləğində azaldılır.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən, Azərbaycanda minimum aylıq əmək haqqının məbləği 2018-ci il yanvarın 1-dən artırılaraq **130** manat müəyyən edilib.
- Mərkəzi Bankın məlumatına görə, bu il noyabrın 1-dək ölkədə fəaliyyət göstərən bank və digər kredit təşkilatlarının kredit portfeli milli valyuta ekvivalentində **12.152,2 milyon** manat təşkil edib.
- Bu ilin yanvar-noyabr ayları ərzində Azərbaycanda əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2016-cı ilin eyni dövrü ilə müqayisədə real ifadədə **1,0** faiz artaraq **7532,5 milyon** manat olub.
- Dekabrın 25-də Mərkəzi Bank tərəfindən vəsaitlərin cəlb edilməsi üzrə keçirilmiş növbəti depozit hərracında tələb **300 milyon** manat, hərracın nəticəsində bağlanılmış depozit əqdləri üzrə orta ölçülmüş faiz dərəcəsi isə **14,17%** təşkil edib.

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

### Əmək müqaviləsinin rəsmiləşdirilməsi

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Qeyri-neft məhsullarının ixracı 22 faizdən çox artıb

*İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin «İxrac icmalı»nın növbəti buraxılışı təqdim edilib. İcmala əsasən, bu ilin 11 ayı ərzində qeyri-neft sektoru üzrə ixrac 1 milyard 387 milyon ABŞ dolları həcmində olub və bu əməliyyatlarda 1824 subyekt iştirak edib.*

«Azexport.az» portalının rəhbəri Zaur Qardaşovun sözlərinə görə, ölkədə istehsal olunan məhsulların rəqabətqabiliyyətliliyinin artırılması, iqtisadi strukturunun diversifikasiyası istiqamətində mühüm addımlar atılır: «Azərbaycan Prezidentinin 18 yanvar 2016-cı il tarixli sərəncamı qeyri-neft sektorunda istehsal olunan məhsulların ixracının stimullaşdırılması üçün vacib sənəddir. Sərəncamda Nazirlər Kabinetinə xarici ölkələrə ixrac missiyalarının təşkil edilməsi, xarici bazarların araşdırılması və marketinq fəaliyyəti, «Made in Azerbaijan» brendinin xarici bazarlarda təşviqi, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlərin alınması, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən məbləği və ödənilmə mexanizmi haqqında layihə hazırlamaq tapşırılıb. İqtisadiyyat Nazirliyi isə potensial ixrac bazarları ölkələrində logistika mərkəzlərinin yaradılması və ixracyönümlü istehsal üçün kredit güzəştlərinə müvafiq dəyişikliklər edilməsi ilə bağlı təkliflər verməlidir».

Bildirilib ki, ixrac potensialının stimullaşdırılmasında əsas məsələ rəqabətqabiliyyətli məhsul istehsalının üzərinə düşür. Bu baxımdan, Azərbaycanda sahibkarların səmərəli işləməsi üçün dövlət tərəfindən xüsusi diqqət və qayğı göstərilir. İxracı stimullaşdırmaq üçün dünya bazarında həmin məhsullara tələbin öyrənilməsi, marketinq fəaliyyətinin qurulması, məhsulların tanınması üçün şirkət nümayəndələrinin beynəlxalq sərgilərdə iştirakı, beynəlxalq sertifikatların alınması, həmçinin xarici bazarlara ixrac edilən məhsulların daşınmasında sərf olunan nəqliyyat xərclərinə dövlət tərəfindən güzəştlərin tətbiqi və s. vacib şərtlərdir.

2017-ci ilin 11 ayı ərzində qeyri-neft sektoru üzrə ixracın həcmi 1 milyard 387 milyon ABŞ dolları həcmində olub ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 22 faizdən çoxdur. İxrac əməliyyatlarında 1824 subyekt iştirak edib. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, 2017-ci ilin 11 ayı ərzində ən çox qeyri-neft məhsullarımız Rusiya Federasiyasına ixrac edilib (498 milyon dollar həcmində), Türkiyəyə 264 milyon, İsveçrəyə 133 milyon, Gürcüstana 120 milyon və İtaliyaya 52 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2017-ci ilin 11 ayı ərzində ixrac olunan qeyri-neft sektoru məhsulları arasında pomidor (tomat) birinci yerdə olub (140,2 milyon ABŞ dolları). Bu siyahıda ikinci yeri qızıl (116,4 milyon ABŞ dolları), üçüncü yeri isə qabığı təmizlənmiş meşə fındığı (105 milyon ABŞ dolları) tutub. 11 ay ərzində meyvə-tərəvəz ixracı 453 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 109 milyon, plastmas və onlardan hazırlanan məmulatların ixracı 88 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 74 milyon, kimya sənayesi məhsullarının ixracı 72 milyon, pambıq ixracı 45 milyon, elektrik enerjisi ixracı 41 milyon, şəkər ixracı 39 milyon, çay ixracı 9 milyon ABŞ dolları təşkil edib.

2017-ci ilin noyabr ayında qeyri-neft sektoru üzrə ixracın həcmi 168 milyon ABŞ dolları dəyərində olub və 442 subyekt tərəfindən 168 milyon ABŞ dolları məbləğində ixrac əməliyyatları həyata keçirilib. Noyabr ayı üzrə ixrac olunan əsas mallar xurma, qabığı təmizlənmiş meşə fındığı, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda), alma, xiyar və kornişonlar, metanol (metil spirti), alüminium ərintilərindən qalınlığı 0,2 mm-dən çox olan düzbucaqlı plitələr, tomat, aşqarlanmamış alüminiumdan qalınlığı 0,2 mm-dən çox olan düzbucaqlı plitələr, ağ şəkər, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, daş kömür qatranının yüksək temperaturlu qovulmanın digər yağları və məhsulları, kimyəvi toxuculuq materiallarından böyük tutumlu elastik keçid konteynerləri, dəmirdən və ya aşqarlanmamış poladdan isti yayılmış digər burulmuş çubuqlar və s. olub. Noyabr ayında xurmanın ixracının dəyəri 39,7 milyon ABŞ dolları, qızılın ixracının dəyəri 17,9 milyon ABŞ dolları və qabığı təmizlənmiş meşə fındığının ixracının dəyəri 16,1 milyon ABŞ dolları təşkil edib. Noyabr ayında qeyri-neft məhsullarının ixrac edildiyi ölkələrin siyahısında ilk beşlikdə Rusiya, Türkiyə, İsveçrə, Gürcüstan və İtaliya təmsil olunub.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin 11 ayı ərzində elektrik enerjisinin ixracı 2 dəfə, pambığın ixracı 2,3 dəfə, çayın ixracı 65 faiz, meyvə-tərəvəzin ixracı 35 faiz, kimya sənayesi məhsullarının ixracı 35 faiz artıb.

**F. İKRAMQIZI**

«Azexport.az» portalına 2017-ci ilin 11 ayında daxil olan ixrac sifarişlərinin dəyəri *(milyon ABŞ dolları)*




2017-ci ilin 11 ayında qeyri-neft sektoru üzrə 5 əsas ixrac ölkəsi *(milyon ABŞ dolları)*




> **“2017-ci ilin 11 ayı ərzində qeyri-neft sektoru üzrə ixracın həcmi 1 milyard 387 milyon ABŞ dolları həcmində olub ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 22 faizdən çoxdur**

# Mühasiblərə texnologiyanın son yenilikləri təqdim edilib



Dekabrın 24-də Azərbaycan Sahibkarlar Konfederasiyasının binasında «Vergi uçotu və mühasibat uçotu sahəsində yeni tətbiqlər» mövzusunda seminar keçirilmişdir. Milli Mühasiblər Forumunun təşkil etdiyi tədbirdə 100-ə yaxın təşkilatdan, o cümlədən Energetika, Nəqliyyat, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, SOCAR, «Azərsun Holding», «Azəravtoyol» ASC, «Nestle Azərbaycan», «Azərbaycan Hava Yolları» QSC və s. kimi iri şirkətlərin mühasibləri və mütəxəssisləri iştirak etmişlər.

Milli Mühasiblər Forumunun sədri Ruslan Atakişiyevin və Fondun Təşkilat Komitəsinin üzvü, Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəis müavini Mirəli Kazımovun giriş nitqlərindən sonra söz təlimçilərə verilmişdir. «Professional mühasib» jurnalının baş redaktoru Mehdi Babayev «Elektron qaimə-fakturaların tətbiqi və vergi orqanı tərəfindən göndərilən uyğunsuzluq məktubları», «SM konsaltinq» şirkətinin direktoru Emin Səttarov «Sadələşdirilmiş vergi bəyannamələrinin doldurulması qaydaları», İqtisadi Araşdırmalar və Tədris Mərkəzinin vitse-prezdenti Radil Fətullayev «Sadələşdirilmiş (mənfəət) vergi bəyannaməsinin 1 nömrəli əlavəsinin doldurulması qaydaları» barədə təqdimatla çıxış etmişlər. Sonra SOCAR-ın mühasibi Kəmaləddin Quliyevin «Kredit almaq məqsədilə müəssisənin maliyyə təhlilinin aparılması» mövzusunda məruzəsi dinlənilmişdir.

Qeyd edək ki, Milli Mühasiblər Forumunun təşkilatçıları Vergilər Nazirliyi, Auditorlar Palatası, Sahibkarlar Konfederasıyası, İqtisadi Resursların Öyrənilməsi İctimai Birliyi, Gənc Mühasiblər Birliyi, İqtisadi Araşdırmalar və Tədris Mərkəzidir.

# «Özəlləşdirmə portalı» investorlara geniş imkanlar yaradır

***Prezident İlham Əliyevin «Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması ilə bağlı bəzi tədbirlər haqqında» imzaladığı fərmana əsasən, ölkədə bu sahəyə yeni yanaşmalar tətbiq edilir, özəlləşdirmə prosesi sürətləndirilir, potensial investorların cəlb olunması ilə bağlı işlər davam etdirilir. Bu tədbirlərdən biri də «Özəlləşdirmə portalının» (privatization.az) istifadəyə verilməsidir.***

Əmlak Məsələləri Dövlət Komitəsinin (ƏMDK) İctimaiyyətlə əlaqələr şöbəsindən bildirilmişdir ki, Azərbaycanda özəlləşdirilməyə çıxarılmış dövlət əmlakı, o cümlədən səhmdar cəmiyyətləri, iri müəssisələr, kiçik dövlət müəssisələri, qeyri-yaşayış və torpaq sahələri, avadanlıqlar və nəqliyyat vasitələri barədə müfəssəl məlumatlar bu portalda yerləşdirilir. Portal Azərbaycanda özəlləşdirmə prosesində iştirak etmək istəyən bütün investorlar üçün biznes portfelinə uyğun olaraq daşınmaz əmlak seçimi ilə bağlı geniş imkanlar yaradır: burada həm özəlləşdirilməyə çıxarılan əmlaklar barədə məlumatı əldə etmək, hərracları canlı izləmək, habelə prosesə onlayn qatılaraq özəlləşmədə iştirak etmək mümkündür.

Portalda özəlləşmə prosesini əhatə edən investisiya müsabiqələri, hərraclar barədə məlumatlar operativ şəkildə yenilənir. Ziyarətçilər investisiya müsabiqələri bölməsinə daxil olmaqla müsabiqə vasitəsilə özəlləşəcək açıq səhmdar cəmiyyətlərinin siyahısı ilə tanış ola bilirlər. Saytda müsabiqəyə çıxarılan müəssisələr sənaye, aqrar, inşaat, xidmət, səhiyyə, telekommunikasiya, nəqliyyat sahələri üzrə müxtəlif kateqoriyalara bölünüb. Burada həmin əmlaklar barəsində məlumatlar, onların fəaliyyət istiqaməti, bazardakı perspektivləri, mövqeyi kimi informasiyalar yer alıb. Həmçinin müəssisələrin foto-şəkilləri, əsas istehsal sahələri və onların qısa xarakteristikası, o cümlədən investisiya qoyuluşunda üstün cəhətlər, müəssisənin imkanları, bazarda mövcud olan rəqiblər haqqında ətraflı məlumatlar yerləşdirilib. Aydın məsələdir ki, əmlaklarla əvvəlcədən tanışlıq investora öncədən fəaliyyətini planlaşdırmağa, bazarı ətraflı təhlil etməyə, mövcud riskləri analiz etməyə imkan verir. İnvestorlar, iş adamları hərraca çıxarılacaq dövlət əmlakları barədə hər həftə yenilənən məlumatlar əldə edə bilərlər. Həmin əmlaklar hərracın keçirilməsindən bir ay öncə portalda yerləşdirilir.

Hərraclar vasitəsilə əmlakını özəlləşdirmək istəyən iş adamları privatization.az saytına daxil olmaqla elektron qaydada sifariş vermək, hərraclarda onlayn iştirak etmək imkanına malikdirlər. Portalda fəaliyyət göstərən «onlayn məsləhət pəncərəsi»nin məqsədi isə özəlləşmə prosesində iştirak edən və potensial investorlar üçün yarana biləcək sualların daha çevik və dolğun şəkildə cavablandırılmasıdır.

**FƏXRİYYƏ**

# Rəqəmsal iqtisadiyyat nağdsız ödənişləri inkişaf etdirəcək



Elektron xidmətlərin tətbiqinin genişləndirilməsi, dövlət-vətəndaş münasibətlərinin müasir əsaslar üzərində qurulması, rəqəmsal iqtisadiyyatın formalaşdırılması kimi məsələlər Azərbaycanda aktuallıq kəsb etməkdədir. Mövzunu Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) İqtisadiyyat İnstitutunun şöbə müdiri Aqil Əsədov şərh edir.

**- Aqil müəllim, Azərbaycanda elektron xidmətlərin tətbiqi ilə bağlı indiyə qədər görülmüş işlərin səviyyəsini qaneedici hesab etmək mümkündürmü?**

- Elektron xidmətlər müasir dövrümüzün, gündəlik həyatımızın ayrılmaz tərkib hissəsinə çevrilib. Qloballaşma və inteqrasiya prosesləri ilə xarakterizə olunan indiki dövrdə hər hansı sahədə davamlı və dinamik uğurları elektron xidmətlərsiz təsəvvür etmək qeyri-mümkündür. Qlobal məkana sürətlə inteqrasiya olunan Azərbaycanda da elektron xidmətlərin tətbiqi və genişləndirilməsi istiqamətində ardıcıl addımlar atılıb və atılır. Artıq bu sahədə müvafiq normativ-hüquqi baza formalaşdırılıb. Müxtəlif dövlət qurumları tərəfindən ümumilikdə 500-ə yaxın xidmət elektron formada həyata keçirilir. Dövlət orqanlarının informasiya sistemləri arasında informasiya mübadiləsinin təşkilinə və vətəndaşların bu elektron xidmətlərdən «bir pəncərə» prinsipi əsasında istifadəsinə şərait yaratmaq məqsədilə «Elektron hökumət» portalı yaradılaraq istifadəyə verilib.

Dövlət orqanları tərəfindən əhali ilə bilavasitə təmasda həyata keçirilən xidmətlərin, o cümlədən fərdi sahibkarların və yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin qeydiyyatı, daşınmaz əmlaka dair çıxarışların və arayışların verilməsi, gətirilən və aparılan malların bəyan edilməsi, məcburi dövlət sosial sığortası üzrə hesabatların və sığortaolunanlar barədə məlumatların təqdim olunması, ünvanlı sosial yardım və pensiya təyinatı üçün ərizələrin, telefon çəkilişi və internetə qoşulmaq üçün müraciətlərin qəbulu və s. elektron formada göstərilməsi tam təmin edilib və bu xidmətlərin əhatə dairəsi gündən-günə genişlənir. Dövlət orqanlarında göstərilən xidmətlərə görə nəzərdə tutulan rüsumlar və digər ödənişlər real vaxt rejimində elektron formada ödənilir.

E- xidmətlərin təşkili sahəsində Azərbaycan Avropa İttifaqının ən qabaqcıl ölkələri ilə sıx əməkdaşlıq edir və bu faktor öz mühüm faydasını göstərməkdədir.

> **“Elektron xidmətlərin təşkili sahəsində Azərbaycan Avropa İttifaqının ən qabaqcıl ölkələri ilə sıx əməkdaşlıq edir və bu faktor öz mühüm faydasını göstərməkdədir**

**- Dövlət qurumlarında e-xidmətlər sahəsində hansı əlavə işlərin görülməsinə ehtiyac var?**

- Dövlət qurumlarının əksəriyyəti e-xidmətdən istifadə edir və elektron xidmətlər göstərir. Bir neçə ildir ki, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Mərkəzi Seçki Komissiyası, Təhsil Nazirliyi və s. qurumlar göstərdikləri xidmətlərin böyük bir hissəsini elektronlaşdırıb. Bununla belə, «Elektron hökumət», elektron xidmətlər və elektron kommersiya sahəsində mövcud vəziyyətin təhlili göstərir ki, bu sahədə bəzi təkmilləşdirmələrə ehtiyac var. Bu sahədə həyata keçirilən siyasətin hədəfi vətəndaşların dövlət qurumlarından keyfiyyətli onlayn xidmət almasını təmin etmək, vətəndaş-hökumət, vətəndaş-məmur münasibətlərini daha sağlam və müasir formata gətirməkdir. Yaxşı olardı ki, bütün dövlət qurumları maksimum şəkildə xidmətləri elektronlaşdırsın. Əhalinin istifadəsinə verilən elektron xidmətlərin sayı və keyfiyyəti artırılmalı, xidmətlər vətəndaşlar üçün maksimum əlçatan olmalıdır. Xüsusilə də regionlarda e-xidmətlərin təşkili işinə diqqət artırılmalıdır.

Təəssüf ki, insanların əksəriyyəti hələ də keçmiş düşüncələrdən, kağızla işləmək vərdişlərindən xilas ola bilmir, nəticədə bəzən 3-5 dəqiqəyə görülməli olan iş 3-5 gün vaxt aparır. Xidmətlərin elektronlaşdırılması vaxt itkisini azaltmaqla yanaşı, həm də kağız və digər kargüzarlıq xərclərinə qənaət etməyə imkan verir, şəffaflığı təşviq edir.

Düşünürəm ki, elektron xidmətlər barədə mütəmadi olaraq təşviqedici tədbirlərin görülməsi - maarifləndirici nəşrlərin çapı, «dəyirmi masa»ların təşkili, telemüzakirələrin aparılması zəruridir. Bu işlərə vətəndaş cəmiyyəti qurumlarının cəlb edilməsi də məqsədəuyğundur. Arzu edərdim ki, sahibkar aylar üzrə ödədiyi sosial sığorta haqqına görə şəxsi bazaya (ödənişi edən vətəndaş üçün yaradılan pensiya fonduna) və ya təşkilat və müəssisənin hər bir işçi üçün ödədiyi sığorta haqqından onun pensiya formalaşdıracağı fonda nə qədər vəsait daxil olduğundan vaxtında xəbər tuta bilsin və daxilolmaların nəticəsi müntəzəm olaraq ödəniş edənə və işçiyə elektron formada mesaj kimi göndərilsin. Məsələn, «A» MMC-nin işçisinin mobil telefonuna, yaxud e-mail ünvanına hər ayın sonunda aldığı əməkhaqqından ödədiyi 3% və müəssisənin (sahibkarın) əməkhaqqı fondundan ödədiyi 22% vəsait əsasında yığılan məbləğ barədə məlumat daxil olsun. Düşünürəm ki, bunun tətbiqi müqaviləsiz işləyənlərin azalmasına və əməkhaqqından vergilərin daha yaxşı yığılmasına kömək edə bilər.

**- Vergilər Nazirliyinin elektron xidmətlər sahəsində fəaliyyətini necə dəyərləndirmək olar?**

- Vergilər Nazirliyi 2006-cı ildən AVİS-i yaratmaqla e-xidmətlər sahəsində fəaliyyət göstərməyə başlayıb və hazırda ən çox və ən keyfiyyətli e-xidmətlər göstərən mərkəzi icra qurumu kimi birinci yerdədir. Təqdirəlayiq haldır ki, vergi ödəyicisi vergi orqanına getmədən vergi orqanı-vergi ödəyicisi platforması çərçivəsində işlərin 90%-ni e-xidmətlər vasitəsilə həyata keçirə bilir. Elektron qeydiyyat («ASAN imza» istifadəçiləri üçün), təsərrüfat subyektinin (obyektinin) qeydiyyata götürülməsi, NKA-nın uçota alınması və çıxarılması, banklarda hesab açmaq üçün şəhadətnamə-dublikatların alınması, bütün növ vergi bəyannamələrinin hazırlanması və göndərilməsi yaxşı təcrübənin nümunələridir. Bunlarla bərabər, bəzi təkmilləşdirici addımların atılması da zəruridir, elektron xidmətlər davamlı olaraq yenilənməlidir. Məsələn, nazirliyin təqdim etdiyi «e-qaimə» sistemi yeni bir xidmətdir və təkmilləşdirilməsinə ehtiyac var. Aydındır ki, bu, elektronlaşdırılan sonuncu xidmət deyil və bu istiqamətdə digər təkmilləşmələrin aparılması da qaçılmazdır.

**- AMEA-nın İqtisadiyyat İnstitutu tərəfindən e-xidmətlərin inkişafına dair yeni təkliflər hazırlanıb. Təkliflər sənədində əsas istiqamətlər nədən ibarətdir?**

- AMEA-nın İqtisadiyyat İnstitutu Azərbaycanda fundamental iqtisadi tədqiqatların real mərkəzinə və əsas əlaqələndiricisinə, o cümlədən hökumətin kollegial ekspertinə və məsləhətçisinə çevrilmək kimi qarşıya strateji məqsəd qoyub və bu hədəflərə uyğun addımlar atılmaqdadır. İnstitutumuz son dövrlər müvafiq dövlət qurumları ilə paralel olaraq müxtəlif istiqamətlərdə, o cümlədən e-xidmətlərin inkişafı istiqamətində müəyyən işlər görür. Strateji yol xəritələri ilə bağlı proqramlardan irəli gələn layihələrin hazırlanmasında və ekspertizasında institut çox yaxından iştirak edir: xidmətlərin elektronlaşdırılması, rəqəmsal iqtisadiyyatın formalaşdırılması, dövlət proqramlarının hazırlanması və icrası istiqamətində müvafiq qurumlarla əməkdaşlığı davam etdirir.

«Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi»ndə nağd hesablaşmaların məhdudlaşdırılması, rəqəmsal iqtisadiyyatın formalaşdırılması öz əksini tapıb və bununla bağlı müvafiq qurumlara tapşırıqlar verilib. Mərkəzi Bankın təklifi əsasında AMEA İqtisadiyyat İnstitutu tərəfindən «Master Card»la birlikdə «2018-2021-ci illərdə «Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı» hazırlanıb. Proqramda ölkədə rəqəmsal ödənişlərin və tranzaksiyaların əhəmiyyətli dərəcədə genişləndirilməsi və qeyri-nağd hesablaşmalara keçidin sürətləndirilməsi, nağd ödənişlərin miqyasının minimuma endirilməsi, bank sektorunun maliyyə resursları bazasının gücləndirilməsi, nağd pul tədavülü ilə bağlı yaranan tranzaksiya xərclərinin azaldılması və ümumilikdə qabaqcıl beynəlxalq təcrübə əsasında rəqəmsal ödənişlərin institusional mühitinin daha da yaxşılaşdırılması nəzərdə tutulub.

**- Ölkəmizdə qeyri-neft sektorunun inkişafı ilə bağlı sistemli islahatlar aparılır. Bu sahədə mövcud vəziyyəti necə qiymətləndirmək olar?**

- Xidmət sahələri istər milli iqtisadiyyatın, istərsə də ümumilikdə qlobal iqtisadiyyatın lokomotivinə çevrilməkdədir. Məsələn, ÜDM-in tərkibində xidmət sahələrinin payı bir çox ölkələrdə 55%-dən artıqdır. Təbii ki, bu, xidmət sahələrinin inkişafının zəruri olduğunu göstərən reallıqdır. Bütün bunları nəzərə alan Azərbaycan hökuməti də xidmət sahələrinin inkişafı istiqamətində müəyyən işlər görür. Xüsusilə nəqliyyat sektorunun təkmilləşdirilməsi, turizm xidmətlərinin inkişafı, nəqliyyat-tranzit xidmətlərinin təşkili və təkmilləşdirilməsi buna nümunə göstərilə bilər. Bütün bunlara baxmayaraq, hələlik mövcud potensialların tam şəkildə reallaşdırılmasına nail olunmayıb. Ölkəmizin tranzit imkanları, turizmin müxtəlif növlərinin inkişaf potensialı bu sahələri büdcənin əsas gəlir mənbələrindən birinə çevirməyə imkan yaradır. Hesab edirəm ki, həmin sahələr üzrə sistemli kompleks tədbirlərin görülməsinə ehtiyac var.

**- Elektron ticarət və elektron xidmət sahələrinin inkişaf etdirilməsi üçün hansı addımlar atılması zəruridir?**

- Elektron ticarətin tənzimlənməsi istiqamətində əhəmiyyətli tədbirlər görülməkdədir. «Elektron ticarət haqqında» Qanun, eləcə də digər normativ hüquqi aktlar bu sahə üçün hüquqi baza yaradır. Amma bu məsələdə hüquqi bazanın daha da təkmilləşdirilməsi zəruridir. Bütün istifadəçilər üçün internet xidmətlərinin keyfiyyəti yüksəldilməlidir. Digər vergilərlə bağlı qanunvericilikdəki boşluqlar aradan qaldırılmalıdır. Üçüncüsü, mentalitet məsələsi var: insanlar nağdı qoyub, nisyə dalınca qaçmaq istəmirlər. Bununla belə, müşahidələr göstərir ki, normal təhlükəsizlik sistemi qurulsa, virtual ticarətin üstünlükləri ənənəvi ticarətdən qat-qat cəlbedicidir.

**- Xidmət sektorunda vergi siyasətinin tənzimlənməsi üçün hansı dəyişikliklərin edilməsini vacib hesab edirsiniz?**

- Vergi Məcəlləsinə davamlı olaraq edilən dəyişikliklər, vergi qanunvericiliyinin təkmilləşdirilməsi birbaşa biznesin səmərəliliyinin artırılmasına, sahibkarların daha rahat fəaliyyət göstərməsinə xidmət edir və son illərdə bunun mühüm nəticələri müşahidə olunmaqdadır. Vergi sisteminin müasir iqtisadi tələblərin və aparılan ümumi islahatların şərtlərinə uyğun olaraq dəyişməsi labüddür. Bu mənada, ölkədə qeyri-neft sektorunun mühüm bölmələrinin spesifik xüsusiyyətləri nəzərə alınaraq, həmin sahələrdə qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsinə ehtiyac var. Bu gün xidmət sektorunun rolunun artırılması olduqca vacibdir, bu mənada, xidmət sahələrindən əldə edilən gəlirin vergi baxımından uçotunun aparılması və dəqiqləşdirilməsi istiqamətində iş aparılmalıdır. Məsələn, yaz-yay mövsümündə minlərlə ev müxtəlif regionlarda 40-60 manat müqabilində bir günlük kirayəyə verilir. Lakin həmin kirayə sahələrinin uçotu aparılmır və nəticədə turizm xidmətlərindən olan milyonlarla manat (təqribi hesablamalara görə, bu rəqəm 15-18 milyon arasında dəyişir) vəsait uçotdan kənarda qalır. Bu baxımdan, tənzimləyici-stimullaşdırıcı addımların atılması zəruridir. Vergini ödəyən vətəndaşın gələcək həyatı üçün səmərəli sosial mexanizm yaradılmalıdır ki, onun vergi verməyə həvəsi artsın. Misal üçün, ödəyici vəsaitin bir hissəsinin öz pensiya fonduna yığıldığına əmin olmalıdır. Bu halda ödəmələrə meyil artacaq və digər sahələrdə də buna bənzər stimulverici mexanizmlər tətbiq etmək olar.

*Müsahibəni hazırladı:*
**Elbrus CƏFƏRLİ**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Prezident İlham Əliyevin fərmanı ilə «Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında» Qanun təsdiq olunub.

Dövlət başçısı «Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin yaradılması haqqında» fərman imzalayıb.

Maliyyə Bazarlarına Nəzarət Palatası «MoneyPolo» pulköçürmə sisteminin Azərbaycan Respublikasının işğal altında olan ərazilərinə qeyri-qanuni formada pulköçürmələr həyata keçirdiyini, bunun çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsində mühüm vasitə olduğunu müəyyən etdiyi üçün onun ölkədə fəaliyyətini dayandırıb.

Azərbaycan ilə Türkiyə arasında Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə yükdaşımalara dair tariflər müəyyən edilib.

Azərbaycanın qeyri-neft məhsullarının ixracı üzrə Rusiya birinci yerdədir.

Azərbaycanın paytaxtı Bakı şəhəri MDB dövlətləri arasında Yeni il bayramı ərəfəsində rus turistlərin ən çox istirahət edəcəyi ikinci şəhər sırasındadır.

«Gəncə Avtomobil Zavodu» İstehsalat Birliyi ilə Çexiyanın «Tatra» şirkəti arasında əməkdaşlıq memorandumu imzalanıb.

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

Cari ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə**, www.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

VERGİLƏR NAZİRLİYİ

# Azərbaycan Respublikasının Vergilər Nazirliyi vergi orqanlarında işə qəbulla bağlı müsabiqə ELAN EDİR

Dövlət vergi orqanlarına xidmətə qəbul «Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin, «Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə»nin və Vergilər Nazirliyinin 24 iyun 2014-cü il tarixli 1417040100819300 nömrəli əmri ilə təsdiq edilmiş «Dövlət vergi orqanlarına işə qəbulla əlaqədar sənədlərin toplanması, yoxlanılması, müsabiqənin keçirilməsi, ehtiyat kadrların formalaşdırılması və idarə edilməsi Qaydaları»nın tələblərinə müvafiq olaraq aparılır.

Müsabiqədə iştiraka, bir qayda olaraq, iqtisadiyyat, hüquq və idarəetmə ixtisas istiqamətləri üzrə ali təhsilə malik (xarici ölkədə təhsil almış namizədlərin diplomları müvafiq qaydada nostrifikasiya olunmalıdır), yaşı 35-i keçməmiş (müvafiq ixtisas üzrə elmi dərəcəsi olan şəxslər, ali təhsili fərqlənmə diplomu ilə bitirmiş şəxslər, yüksək peşə hazırlığına və ya iş təcrübəsinə malik şəxslərə yaş həddi tətbiq edilmir) vətəndaşlar buraxılırlar.

«Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin 9-cu maddəsinə əsasən, vətəndaş aşağıdakı hallarda vergi orqanlarında xidmətə qəbul oluna bilməz:

♦ məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə;

♦ üzərindən məhkumluğu götürülmədikdə və ya ödənilmədikdə.

Qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırış yaşlı vətəndaşlar dövlət vergi orqanlarında xüsusi rütbələr nəzərdə tutulmuş vəzifələrə xidmətə qəbul edilmirlər.

Müsabiqəyə sənəd qəbulu elektron ərizə vasitəsilə **05.12.2017-ci il saat 10:00-dan 30.12.2017-ci il saat 24:00-dək** həyata keçirilir. Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar göstərilən müddət ərzində Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az və www.e-taxes.gov.az) daxil olaraq elektron ərizə formasını doldurmalıdırlar. Ərizə formasına sağlamlıq haqqında tibbi arayışın, ali təhsil haqqında diplomun, məhkumluğun olması (olmaması) barədə arayışın və narkoloji dispanserdə qeydiyyatda olması (olmaması) barədə arayışın surətləri mütləq qaydada fayl şəklində əlavə edilməlidir. Ərizə formasını doldurub sistemə daxil etdikdən sonra namizədə ərizənin sistemə daxil olunduğu barədə elektron poçt ünvanına məlumat verilir. Namizədin ərizəsi qəbul edildikdən 5 gün ərzində ona baxılır, ərizə qəbul edilərsə, namizədin iş nömrəsi və sınaq imtahanının vaxtı və yeri barədə, ərizə qəbul edilmədiyi halda isə səbəbi haqqında elektron poçt ünvanına məlumat verilir. Ərizə göndərilən müddətdən 5 gün ərzində elektron poçt ünvanına heç bir məlumat göndərilməyən vətəndaşlar elanda qeyd olunmuş telefon nömrəsi ilə əlaqə saxlamalıdırlar.

Namizədlər internet vasitəsilə elektron ərizə formasını doldura bilmədikdə və ya bu zaman hər hansı texniki problem yarandıqda **012-403-81-35 nömrəli telefonla** Vergilər Nazirliyinə, Bakı şəhərində və regionlarda fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərlər.

Müsabiqənin test imtahanı Dövlət İmtahan Mərkəzi ilə razılaşdırılmış tarixdə Dövlət İmtahan Mərkəzinin müəyyən etdiyi yerdə və vaxtda keçiriləcəkdir. Test imtahanının keçiriləcəyi tarix və namizəd kimi qeydə alınmış namizədlərin imtahana buraxılış vərəqələrinin götürülməsi tarixi barədə Nazirliyin rəsmi internet saytında əlavə məlumat veriləcəkdir.

Müsabiqənin test imtahanı mərhələsinin suallarını (məntiq və informatika sahələri üzrə suallar istisna olunmaqla) özündə əks etdirən ədəbiyyat siyahısı Vergilər Nazirliyinin rəsmi internet saytının (www.taxes.gov.az) «İşə qəbul. Müsabiqələr» bölməsində yerləşdiriləcəkdir.

Son 1 il ərzində ingilis dilini bilmə səviyyəsi TOEFL (IBT) 100 və 100-dən yuxarı və ya IELTS üzrə 7 və 7-dən yuxarı olan namizədlərə üstünlük verilir. Namizəd ingilis dili səviyyəsini təsdiq edən müvafiq sənəd barədə məlumatları (sənədin adını, nömrəsini, qısa məzmununu və ingilis dili səviyyəsini) elektron ərizə formasının «Əlavə qeydlər» hissəsində göstərməlidir.

Müsabiqədə müvəffəqiyyət qazanmış, lakin vakant vəzifələr üzrə iş təklifindən imtina edən namizədlər Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılacaqdır.

# 2018-ci ilin yanvar ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**2017-ci ilin dekabr ayına görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsi,
- Aksiz bəyannaməsi,
- Yol vergisi bəyannaməsi,
- Mədən vergisi bəyannaməsi,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən

**2018-ci ilin yanvar ayının 22-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və təqdim olunmuş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş verginin bəyannaməsi 2018-ci ilin yanvar ayının 22-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**2017-ci ilin 4-cü rübünə görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

- Sadələşdirilmiş verginin bəyannaməsi və
- ödəmə mənbəyində tutulan verginin bəyannaməsi

**2018-ci ilin yanvar ayının 22-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və rüb üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Xüsusi notariusların gəlir vergisi bəyannaməsi 2018-ci ilin yanvar ayının 22-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və 2017-ci ilin dekabr ayı üzrə hesablanmış gəlir vergisi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Dövlər rüsumu haqqında hesabat 2018-ci ilin yanvar ayının 22-dək** vergi orqanına təqdim edilməli, notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək 2 bank günü, xarici ölkələrdəki diplomatik nümayəndəliklərdə aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu 1 ay, digər dövlət rüsumları isə tutulduqdan sonra 1 bank günü ərzində dövlət büdcəsinə köçürülməlidir.

**Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi**

- ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən 2018-ci ilin yanvar ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və 2017-ci ilin dekabr ayı üzrə hesablanmış vergi 2018-ci ilin yanvar ayının 22-dən gec olmayaraq tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.
- Digər vergi ödəyiciləri tərəfindən (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri istisna olmaqla) 2018-ci ilin yanvar ayının 22-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və 2017-ci ilin dekabr ayı üzrə hesablanmış vergi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

**Gəlir və mənfəət vergisi ödəyiciləri tərəfindən**

2017-ci ilin 4-cü rübü üzrə hesablanmış cari ödəmələr 2018-ci ilin yanvar ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# «Mobil hökumət» konsepsiyası hazırlanır

Azərbaycan Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş «Telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi»ndə 2017-2018-ci illərdə dövlət sektoru daxilində, eləcə də dövlət sektoru ilə əlaqələr zamanı yazışmaların tamamilə elektronlaşdırılması və kağız daşıyıcılardan istifadənin aradan qaldırılması nəzərdə tutulur.

Yol xəritəsində bildirilir ki, «Elektron hökumət» portalındakı xidmətlərə «ASAN xidmət» standartlarının tətbiqi nəzərdən keçiriləcək, dövlət xidmətlərinin göstərilməsinin təsirləri və rentabelliliyinin artırılması istiqamətində addımlar təhlil olunacaq, onların inkişaf etdirilməsi zamanı səmərəlilik məsələsinə xüsusi diqqət ayrılacaq. Dövlət xidmətlərinin göstərilməsinin qiymətləndirilməsi üçün metodologiyanın hazırlanması nəzərdən keçiriləcək və hazırlanacağı təqdirdə, bu metodologiyada xidmətlərin həm müştərilərin, həm də dövlət qurumlarının iş prosesi üçün yaratdığı inzibati yük nəzərə alınacaq.

Elektron Xidmətlərin Təşviqi üzrə İctimai Şurada Strateji Yol Xəritəsində 2017-2018-ci illərdə hazırlanması nəzərdə tutulan «mobil hökumət» konsepsiyası ilə bağlı məsələ müzakirə edilib. Mövzunu şərh edən iqtisadçı ekspert Vüqar Bayramovun sözlərinə görə, «mobil hökumət» dövlət xidmətlərinin daha effektiv formada çatdırılması üçün geniş imkanlar yaradır. Hazırda ölkədə mobil tətbiqi olan dövlət qurumlarının və mobil formata keçirilmiş xidmətlərin sayı çox azdır. Hazırlanacaq konsepsiya bu sahədə görüləcək işlərin planlaşdırılması, inteqrasiyanın və vahid standartların müəyyən edilməsi, resurslardan effektiv istifadə olunması üçün mühüm sənəddir.

«Mobil hökumət» konsepsiyası Strateji Yol Xəritəsində nəzərdə tutulan fəaliyyət növlərindən biri kimi «ASAN xidmət» tərəfindən yaradılmağa başlanılıb və artıq ilkin versiyası üzərində bir neçə dövlət qurumları ilə müzakirələr həyata keçirilib. İndiki məqamda daha çox vətəndaş cəmiyyəti nümayəndələrinə, ekspertlərə bununla bağlı məlumatın verilməsi, eyni zamanda hökumət blokunun yaradılması məsələləri öz əksini tapıb.

**FƏXRİYYƏ**

# Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edilkdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

Azərbaycan Respublikası Vergilər Nazirliyi

# ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin dekabr və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-ci ilin dekabr və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə

www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az

internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

# ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Gürcüstana ƏDV-nin əvəzlənməsini təkmilləşdirmək tövsiyə edilib

Beynəlxalq Valyuta Fondunun (BVF) Gürcüstan iqtisadiyyatına həsr etdiyi hesabatda qeyd olunmuşdur ki, gələcəkdə sistemlə bağlı tələblərin yığılmasının qarşısını almaq üçün ölkədə əlavə dəyər vergisinin (ƏDV) qaytarılması sahəsində idarəetmə təkmilləşdirilməlidir: «ƏDV ilə bağlı tələblərin ödənilməsi istiqamətində göstərilən səylərə baxmayaraq, mövcud borcların azalması və gələcəkdə tələblərin yığılıb qalmasının qarşısının alınması üçün daha çox iş görülməlidir». Hesabatda göstərilmişdir ki, 2016-cı ildə vergi administrasiyasının diaqnostik qiymətləndirilməsi zamanı aşkara çıxarılmış çatışmazlıqlardan biri ƏDV-nin əvəzlənməsi sisteminin hazırlanmasında və fəaliyyət göstərməsində ödənilməmiş kreditlərin üst-üstə yığılıb qalması olmuşdur. Hesabata əsasən, 2016-cı ildə ƏDV-yə tələb ümumi daxili məhsulun 4,8 faizini təşkil etmişdir, ödənilməmiş tələblərin səviyyəsi isə hər il təmin edilməli olan iddiaların 11 faizi qədər artmışdır.

BVF-nin şərhinə əsasən, bu, bir sıra amillərlə əlaqəlidir ki, buraya əvəzlənmənin vergi ödəyicisinin sorğusu əsasında yalnız vergi orqanı tərəfindən həyata keçirilməsi faktı da daxildir. Bu isə o deməkdir ki, ƏDV üzrə təmin olunmamış iddialar vaxtı uzadılmış borclara aid edilmir.

Bundan əlavə, vergi ödəyiciləri hesab edirlər ki, vergi hesablarında silinməmiş qalıqların saxlanılması onların yoxlanmaq ehtimalını azaldır. ƏDV əvəzlənməsinin qaytarılmasını təxirə salan faktlardan biri də avtomatik əvəzlənmələrin emalı ilə bağlı vergi orqanının meyarlarının sərtliyidir.

# Trampın vergi islahatı qəbul edilib



ABŞ Prezidentinin vergi islahatı layihəsinin Senat tərəfindən qəbul edilməsi ilə Amerikanın iqtisadi həyatında yeni dövrün başlanacağı gözlənilir. Artıq qanun layihəsini Nümayəndələr Palatası təsdiq üçün Prezidentə göndərmişdir. Bu, 1986-cı ildən bəri ölkənin Vergi Məcəlləsində edilən ən ciddi dəyişiklik hesab edilir.

Trampın vergi islahatı korporativ verginin dərəcəsinin, eləcə də ev təsərrüfatlarının əksəriyyəti üçün gəlir vergisinin azaldılmasını nəzərdə tutur.

Respublikaçılar Partiyasının təqdim etdiyi plan gəlir vergisi dərəcəsinin aşağı salınması və vergi çıxılmalarının restrukturizasiyası yolu ilə vergi sisteminin bütün hissələrinə yenidən baxılmasını əhatə edir.

Qanun layihəsi Senatdan minimal səs üstünlüyü ilə keçmişdir: 51 nəfər layihənin lehinə, 48 nəfərsə əleyhinə səs vermişdir. Ehtimal olunur ki, səhiyyə sahəsində islahatın qəbul edilməməsi respublikaçıları vergi islahatı planı ətrafında səfərbər olmağa vadar etmişdir.

Demokratlar Partiyasının səsvermədə iştirak etmiş təmsilçilərinin hamısı islahat planının əleyhinə səs vermişdir.

Prezident D.Tramp bildirmişdir ki, dekabrın 20-də qəbul edilmiş vergi islahatları paketi ABŞ dövlətinə 4 trilyon dollar fayda gətirəcək və Amerika iqtisadiyyatının "qol-qanadını açacaq.

ABŞ Prezidenti qanunvericilik sahəsində özünün ilk ciddi qələbəsini Ağ evdə təntənəli mərasimlə qeyd etmişdir.

# Ukrayna yağlı bitkiləri satmaq problemi ilə üzləşib

Ölkənin Ali Radasının qəbul etdiyi qanun layihəsinə əsasən, hökumətə kənd təsərrüfatı məhsulları ixracatçıları üçün əlavə dəyər vergisi (ƏDV) xərclərini kompensasiya etmək qadağan olunmuşdur. Gələn ilin mart ayından bu sahədə bütün məsuliyyət aqrar sektorun üzərinə düşəcək.

Ekspertlər hesab edirlər ki, yeni qayda fermerlərin ziyana düşməsi ilə nəticələnə bilər. Özü də rüsumların yaranması prinsiplərinin yağlı bitkilərin ixracı ilə bağlı müqavilələrin artıq imzalandığı bir vaxtda dəyişdirilməsi ciddi problem yaradır: məhsulları alan tərəflər əlavə vəsait ödəməyəcək və ƏDV-yə çəkilən xərc aqrar sektor təmsilçilərinin kisəsindən çıxacaq. Belə bir şəraitdə isə ölkədəki iri ixrac sarçı emal müəssisələri qabağa düşəcəklər.

Bu məsələ ilə bağlı Ukrayna Prezidenti qanuna yenidən baxılması xahişi ilə parlamentə müraciət etmişdir. Müraciətdə ixrac barədə Avropa İttifaqı ölkələri ilə əldə edilmiş razılaşmaların pozulmasının arzuedilməz olduğu göstərilir - soya və günəbaxan kimi yağlı bitkilərin satışının əsas bazarını həmin ölkələr təşkil edir.

# «Inter Ikea Systems»in vergidən yayınıb-yayınmaması araşdırılacaq

Avropa Komissiyası İsveçin IKEA şirkətinin Niderlanddakı törəmə bölümünün - «Inter Ikea Systems»in vergidən yayınıb-yayınmadığını dəqiqləşdirmək məqsədilə təhqiqat aparmağa başlayacaq. Avropa Komissiyasının bu münasibətlə yaydığı açıqlamasında bildirilmişdir ki, şirkət Niderland hökuməti tərəfindən verilmiş ədalətsiz vergi güzəştlərindən korporativ verginin ödənilməsində qənaət məqsədilə istifadə etmiş ola bilər. Avropa Komissiyasının rəqabət məsələləri üzrə komissarı Marqaret Vestagerin sözlərinə görə, «istər kiçik olsun, istər böyük, istər transmilli olsun, istər milli - bütün şirkətlər ədalətli vergi payını ödəməlidirlər».

Avropa İttifaqının qanunvericiliyinə əsasən, üzv ölkələrin digər firma və müəssisələrə şamil edilməyən vergi güzəştlərini transmilli şirkətlərə müəyyənləşdirməsinə yol verilmir. «Avropa Komissiyasının rəyinə əsasən, Niderland hökumətinin iki qərarı digər şirkətlərlə müqayisədə «Inter Ikea Systems»ə ədalətsiz üstünlük verə bilərdi», - açıqlamada bildirilmişdir.

Burada söhbət ondan gedir ki, 2006-cı ildə Niderlandın vergi orqanları IKEA-nın başqa bir bölümünə - Lüksemburqda «əhəmiyyətli məbləğdə» lisenziya ödənişinə icazə vermişdi və həmin ödəniş vergiyə cəlb edilməmişdi. Lüksemburq bölümünün iştirakı ilə tətbiq edilmiş bu vergi sxemi qeyri-qanuni elan olunduqdan sonra «Inter Ikea Systems» ilə Niderland arasında daha bir saziş imzalanmışdı. Bu dəfə də sxemdə Lixtenşteyndə tərtib edilmiş istiqraz peyda olmuşdu: bu isə şirkətin gəlirlərinin böyük hissəsini vergitutma səviyyəsinin xeyli aşağı olduğu bir zonaya ötürməyə şərait yaratmışdı.

# ABŞ-ın vergi islahatı Asiya səhmlərini canlandırır

Uoll-Stritin son sessiyasında Asiya səhmləri ABŞ-da gözlənilən vergi islahatları ilə bağlı məlumatlara kəskin reaksiya verərək əla nəticələr göstərmişdir. Dollar isə yeni qanun layihəsinin müsbət iqtisadi effekt verəcəyinə şübhə ilə yanaşan treyderlər ucbatından yerində saymışdır.

MSCI (Asiya-Sakit okean regionu) indeksi 0,4% artmışdır, Avstraliya səhmləri 0,55%, Şanxay səhmləri 0,6% bahalaşmış, Yaponiya səhmləri isə axının əksinə üzərək 0,15% dəyər itirmişdir. Ötən həftə korporativ verginin dərəcəsinin aşağı düşəcəyini nəzərdə tutan vergi islahatına yaxın zamanlarda başlanacağı barədə xəbərlərdən cana gələn Uoll-Strit yeni rekord vurmuşdur. «Biz əminik ki, qanun layihəsi qəbul ediləcək və bu, sərmayəçiləri sevindirəcək», - Tokiodakı «Brown Brothers Harriman» şirkətinin valyuta üzrə strateqi Masasi Murata demişdir.

# Rusiyada becərilməyən torpaqlara görə vergi tutulacaq

Rusiya Federasiyasının Kənd Təsərrüfatı Nazirliyi vergi qanunvericiliyində bəzi müddəaların dəyişdirilməsi ilə bağlı təkliflər irəli sürmüşdür.

Həmin təkliflərə əsasən, sahibkarlar tərəfindən istifadə edilməyən torpaq sahələri ya dövlət mülkiyyətinə qaytarılmalı, ya da boş ərazilər vergiyə cəlb olunmalıdır. İşçi qrupun əldə etdiyi göstəricilərə əsasən, ölkədə istifadəsiz torpaqların sahəsi 40-50 milyon hektara çatır. Nazirliyin mövqeyi belədir ki, qanunvericiliyin dəyişdirilməsi, daha dəqiqi, torpağın kadastr dəyərinin 1,5%-i həcmində vergiyə cəlb edilməsi sahibkarların üzərinə öhdəlik qoyacaq və istifadəsiz torpaqları saxlamaq əlverişsiz olacaq. Bununla da onlar iki yoldan birini seçməli olacaqlar: torpağı ya becərmək, ya da satmaq. Kənd Təsərrüfatı Nazirliyində əmindirlər ki, bu cür tədbirlər fermerlərə öz sahələrində gördükləri işləri fəallaşdırmağa imkan yaradacaq.

Qeyd edək ki, 30%-dən çoxunu alaq basmış torpaqlar becərilməyən torpaqlar sayılır və belə ərazilər becərilmədikdə müəyyən müddətdən sonra torpaq kənd təsərrüfatı ehtiyaclarının ödənilməsi üçün yararsız vəziyyətə düşür.

# Cənubi Koreya kriptovalyutadan vergi tutmaq niyyətindədir

Cənubi Koreya hökuməti kriptovalyuta ticarəti hesabına əldə edilən kapital artımının vergiyə cəlb olunması ilə bağlı niyyətini açıqlamışdır. İndiyədək qlobal miqyasda tənzimləyici orqanlar kriptovalyuta bazarında yaranmağa başlayan «köpükdən» narahatlıqlarını ifadə etmişdilər. Məsələn, Avstraliyanın Milli Bankı dünyada ən məşhur kriptovalyuta olan bitkoinin dəyərinin 20 dəfə artaraq 20 min ABŞ dollarına çatması ilə bağlı bəyan etmişdi ki, əsas kriptovalyutaların dəyərinin kəskin şəkildə artması irimiqyaslı möhtəkirlik üçün yeni imkanlar yaradır. Bankın sədri Filipp Loyun sözlərinə görə, bu aktivlərdən istifadə edən investorların çoxalması getdikcə daha çox «möhtəkirlik maniyasını» xatırladır. Bundan əvvəl bitkoinə qarşı Yeni Zelandiyanın Milli Bankının rəhbəri də çıxış etmişdi. O, bildirmişdi ki, kriptovalyuta ilə bağlı vəziyyət maliyyə bazarında yeni «köpüyün» yaranmasının siqnalını verir.

Buna baxmayaraq, Asiyada kriptovalyuta öz populyarlığını davam etdirir və belə bir vəziyyət Cənubi Koreya rəsmilərini bu sahəni tənzimləməklə bağlı addım atmağa vadar etmişdir. Cənubi Koreya hökumətinin açıqlamasında qeyd edilmişdir ki, kriptovalyuta alverindən gələn kapitalın artımının vergiyə cəlb edilməsi məsələsi gündəlikdədir. Bundan əlavə, qanunverici orqanda həddi-büluğa çatmamış şəxslərin hesab açmasına qadağa qoyulması da təklif edilmişdir.

## krossvord



**Yuxarıdan aşağı:** 1.RF-nin Arxangelsk vilayətində çay; 2.Karib dənizində ada; 3.Memarlıq elementi; 4.Teatr, sirk artistləri dəstəsi; 5.Azərbaycanda nəşr olunan satirik karikatura jurnalı; 6.Çox qədim dövrlərin qalığı olan şey, hadisə; 9.Qusar rayonunda kənd; 13.Ölkəmizdə bölgəyə görə fərqlənən şirin xəmir məhsulu; 15.Müsəlman ölkələrinin bəzilərində yayılmış milli baş geyimi; 16.Su, içki və başqa mayelər tökmək üçün şüşədən, yaxud büllurdan hazırlanan dar, uzunboğaz qab; 17.XIX əsrdə yaşamış dünya şöhrətli Avstriya bəstəkarının soyadı. Vals musiqisinə gətirdiyi yeniliklərə görə tanınır və həmin dövrdə Avropada vals kralı hesab olunurdu; 18.Audio-video kaset və ya CD oxudan yüngül və yığcam cihaz; 20.«Bizim küçə» bədii filmində (1961) baş qəhrəman - Sara rolunu oynayan aktrisanın adı; 21.Ötən əsrin 90-cı illərində populyar olan oyun konsolu. **Soldan sağa:** 1.Mağaraların tavanında əmələ gələn konus şəklində əhəng, damla daş; 5.Üç ölkə ərazisindən axan çay; 7.Müxtəlif sənədləri, hüquqi aktları təsdiq etmək vəzifəsi daşıyan rəsmi şəxs; 8.Rusiya, Qazaxıstan ərazilərindən keçib Xəzər dənizinə tökülən çay. Fin və ya qədim türk dilində «aydın gecə» mənasını verir; 10.Azərbaycan rəssamının adı. Əsərləri bir sıra kitab və jurnallarda çap olunub. Bir çox sərgilərin və müsabiqələrin iştirakçısı, «Karikaturaçı Rəssamlar Birliyi»nin üzvüdür; 11.Avtomobil markası; 12.Bank tərəfindən alğı-satqısı həyata keçirilən qiymətli kağızların alış və ya satış kursu; 14.Azərbaycanlı bəstəkar, xalq artisti və əməkdar incəsənət xadiminin adı. Azərbaycanda ilk rok operettasının müəllifi; 19.Qiymətli nadir əşya, hal, xüsusiyyət, kitab, incəsənət əsəri; 21.Kazak qoşunlarında hərbi rütbə və vəzifə; 22.Orta əsr filosofu və ilahiyyatçısı, sxolastikanın sistemləşdiricisi, tomizmin banisinin adı; 23.Ölkəmizdə çay; 24.RF-nin Komi Respublikasında çay; 25.Xristian olmayan əhali arasında xristianlığı yaymaq üçün kilsə tərəfindən göndərilən şəxs.



Bəzi müsəlman ölkələrində milli baş geyimi

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.İmpost; 2.Litavra; 3.Moizm; 4.Barxan; 5.Romeo; 6.Qandax; 9.Siqi; 13.Opal; 15. Kerroll *(Lüis)*; 16.Abılay *(xan)*; 17.Salair; 18.Ankara; 20.Kater; 21.Tilov. **Soldan sağa:** 1.İslamabad; 5.RPQ; 7.Patriarx; 8. Emin *(Sabitoğlu)*; 10.Sevim; 11.Arizona; 12.Hanoy; 14.Kilkə; 19.Bakkara; 21.Turan; 22.Lita; 23.Kalliopa; 24.Yar; 25.Karavella.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

## idman

# Qələbəyə gedən yol nizam-intizamdan və yüksək hazırlıqdan keçir

Xəbər verdiyimiz kimi, Bakı İdman Sarayında sərbəst və yunan-Roma güləşi üzrə böyüklər arasında Azərbaycan çempionatı keçirilib. Yarışlar başa çatdıqdan sonra Azərbaycan Güləş Federasiyasının (AGF) birinci vitse-prezidenti Sahib Ələkbərov qalib və mükafatçılarla görüşüb.

İdmançıların çempionatda böyük əzmkarlıqla mübarizə apardıqlarını qeyd edən AGF rəsmisi eyni əzmkarlığı növbəti il ərzində keçiriləcək yarışlarda da gözlədiklərini bildirib: «Azərbaycan Güləş Federasiyası tərəfindən yığma komandaların seçiminə daim ədalətlə yanaşmağa çalışılıb və idmançıların beynəlxalq arenada ölkəmizi layiqincə təmsil etmələri üçün lazımi şərait yaradılıb. Ölkəmizdə idmana və idmançılara dövlət səviyyəsində göstərilən diqqətin nəticəsidir ki, bu gün Azərbaycan idmançıları, xüsusən güləşçiləri-miz ən mötəbər beynəlxalq yarışlarda daim ilk üçlükdə qərarlaşırlar. Sizin öhdənizə isə bu ənənəni qoruyub saxlamaq və daha da inkişaf etdirmək vəzifəsi düşür».

Azərbaycan çempionatının qalib və mükafatçısı olmuş hər bir idmançıya uğur arzulayan Sahib Ələkbərov qələbəyə gedən yolun nizam-intizamdan və yüksək hazırlıqdan keçdiyini xüsusi vurğulayaraq deyib: «Artıq növbəti ilin ilk aylarından hazırlıq üzrə təlim-məşq toplanışları başlayacaq. Hər biriniz çalışmalısınız ki, təlim-məşq toplanışlarında məşqçilərin tapşırıqlarına əməl edib, öz üzərinizdə çalışıb qələbəyə köklənəsiniz. Bunun üçün, təbii ki, nizam-intizama da xüsusi diqqət yetirməlisiniz. 2020-ci ildə Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarının iştirakçıları məhz sizin aranızdadır».

Sərbəst güləş üzrə yığma komandanın baş məşqçisi Firdovsi Umudov bu günə qədər olduğu kimi, bundan sonra da onlara göstərilən etimadı doğrultmaq üçün çalışacaqlarını bildirib: «Biz hər zaman dövlətimizin və federasiyamızın dəstəyini üzərimizdə hiss etmişik, bu gün də hiss edirik. Çalışırıq ki, ölkəmizi, bayrağımızı layiqincə təmsil edək. Bunun üçün əlimizdən gələni edirik və edəcəyik. Azərbaycan çempionatının nəticələrinə görə, yığma komandanın yeni heyəti formalaşdı. Qarşıdakı yarışlarda hər bir komanda üzvünü sınaqdan keçirəcək, qitə və dünya çempionatları üçün heyəti müəyyənləşdirəcəyik».

# «İmperator» öz «taxtına» geri döndü



Türkiyəli təcrübəli futbol mütəxəssisi Fatih Terim İstanbulun «Qalatasaray» klubunun baş məşqçisi təyin edilib. Bu vəzifədə xorvatiyalı İqor Tudoru əvəz edən «İmperator» ləqəbli məşhur çalışdırıcı ilə 1,5 illik müqavilə imzalanıb və bununla da o, karyerasında dördüncü dəfə bu missiyanı həyata keçirmək imkanı əldə edib.

Xatırladaq ki, Fatih Terim 1996-2000-ci, 2002-2004-cü, 2011-2013-cü illərdə də «cim-bom»a rəhbərlik edib, 2000-ci ildə «sarı-qırmızılar»a UEFA Kubokunu qazandırıb. Artıq dekabrın 24-də 64 yaşlı futbol mütəxəssisinin rəhbərliyi altında «Qalatasaray» ilk matçına çıxıb və «Göztəpə»ni 3:1 hesabı ilə məğlub edərək, çempionluq yolunda vacib qələbəyə imza atıb.

# Məktəblilər Yeni il Olimpiadasında...




31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl münasibətilə, eləcə də velosiped idman növünə marağı artırmaq məqsədilə Azərbaycan Velosiped İdmanı Federasiyası və «İSMA» Velosiped Zavodunun birgə təşkilatçılığı, Bakı şəhəri üzrə Təhsil İdarəsi və «IB Klub»un dəstəyi ilə dekabrın 30-dək Respublika Velotrekində V-VII sinif şagirdləri üçün Yeni İl Olimpiadası keçirilir.

Tədbir çərçivəsində məktəblilər Respublika Velotrekində yerləşən Velosiped Muzeyi, «İSMA» velosipedlərinin sərgi-satış mərkəzi, Velosiped Treki, BMX stadionu, idmançıların təlim-məşq şəraiti ilə tanış olur, Azərbaycan tarixi və velosiped idmanına aid suallardan tərtib edilmiş bilik yarışında iştirak edirlər. Olimpiadanın sonuncu günündə - dekabrın 30-da ilkin mərhələlərdə yüksək nəticə göstərmiş şagirdlər final mərhələsində mübarizə aparacaq və qaliblərə Azərbaycan Velosiped İdmanı Federasiyası tərəfindən diplom, həmçinin «İSMA» zavodunun istehsalı olan velosipedlər hədiyyə ediləcək.

# Azərbaycanlı qrossmeyster ən yaxşı nəticə göstərib



Moskvada Milad bayramı ərəfəsində keçirilən «Şelkunçik» adlı ənənəvi matç-turnir başa çatıb. «Krallar» komandasının heyətində azərbaycanlı Şəhriyar Məmmədyarov, israilli Boris Gelfand, latviyalı Aleksey Şirov və rusiyalı Sergey Rublyovski çıxış edib. «Şahzadələr» komandasının şərəfini rusiyalılar Qriqori Oparin, Vladislav Artemyev, Andrey Yesipenko, Daniil Yuffa qoruyub. «Kraliçalar» komandasına Yekaterina Kovalevskaya, Qalina Strutinskaya, Tatyana Qrabuzova (hər üçü Moskvadan) və Belarusdan Yelena Zayats daxil idi. «Şahzadə xanımlar» komandası Aleksandra Maltsevskaya, Yelizaveta Solojenkina, Yekaterina Qoltseva və Aleksandra Dimitrovadan ibarət heyətlə təmsil olunurdu.

Turnirin yekunlarına əsasən, Şəhriyar Məmmədyarov öz komandasında ən yaxşı fərdi nəticə göstərərək, mükafata layiq görülüb.

## mozaika

### texnologiya

# İnsanları dərhal tanıya bilən süni intellekt

Çinin süni intellekt sahəsində liderlik edən «Yitu Technology» şirkəti milyonlarla videonəzarət kamerasına qoşularaq insanları dərhal tanıya bilən süni intellekt alqoritmi hazırlayıb. «Dragonfly Eye» adlandırılan sistem milli məlumat bazasında olan 1,8 milyard fotoşəkildən ibarət kolleksiyaya malikdir.



«Dragonfly Eye» ilk iş günündə polis tərəfindən axtarılan insanı izləyərək, onun dəqiq yerini hüquq-mühafizə orqanlarının əməkdaşlarına göndərib. Daha 567 cinayətkar isə şəhər metrosunda sistem tərəfindən aşkar edilib. «Əhalisi 24 milyon olan Şanxay şəhərində bu qədər insanı izləmək mümkün deyil. Hətta çoxlu kameralar olduğu halda, bütün videoçarxlara baxmaq çətindir. Lakin süni intellekt insanları asanlıqla tanıya bilir», - deyə şirkətin həmtəsisçisi və icraçı direktoru Çju Lonq bildirib.

Onun sözlərinə görə, yeni «alqoritm iki fərqli təsvirdə əks olunan şəxslərin eyni insan olub-olmadığını müəyyənləşdirməkdə gömrük mütəxəssislərindən daha dəqiqdir. Sistem obyekti milyonlarla insanın arasında, hətta 25 və ya 30 il əvvəlki fotoşəkildən istifadə edərək, tapa bilər.

### ixtira

# 3D-çap texnologiyasında yenilik

Amerikalı tədqiqatçıların yaratdıqları yeni 3D-çap texnologiyasının köməyi ilə bir neçə saniyə ərzində üçölçülü obyektləri çap etmək mümkündür. Bu proses holoqrafik lazerlərdən istifadə etməklə başa gəlir.

«Həcmli 3D-çap» adlandırılan üsul bu vaxtadək müvafiq sahədə mövcud olan məhdudiyyətlərdən bəzilərini aradan qaldırmağa imkan verib. Standart 3D-çap obyektlərin qatlarını lazer və ya elektron şüa ilə yapışdırır. Bu zaman bu və ya digər predmetlərin istehsalına çox vaxt sərf olunur. Yeni 3D-çap üsulu qatlardan istifadədən imtina olunmasını təklif edir. Mütəxəssislər görünüşcə holoqramları xatırladan üç lazer şüasını tətbiq edirlər. Onlar birlikdə xüsusi şəffaf rezervuarda plastik qatranı vulkanizasiya edir. Bu üsul istehsal prosesini sürətləndirməklə mütəxəssislərin əsas problemini həll edir.



Laboratoriyanın işçisi Maksim Şustefin sözlərinə görə, alimlərin məqsədi predmetlərin hissələrini birləşdirmək əvəzinə bütöv 3D-fiqurlar çap etməyin mümkün olub-olmamasını aydınlaşdırmaq idi. Yeni texnologiyanı kosmik aparatlarda da istifadə etmək mümkün olacaq.

### cəmiyyət

# Fotomodel robot



Erika adlı robot ABŞ-ın «Vogue» qadın jurnalının fotomodeli olacaq. Robotun Yaponiyada keçiriləcək ilk fotosessiyası jurnalın dekabr nömrəsində dərc ediləcək. Tanınmış jurnalın əməkdaşları qeyri-adi mexaniki modellərin dəb dünyasında unikal hadisə olacağını düşünürlər. Bu səbəbdən onlar Erikaya fotomodel olmağı təklif ediblər.

Erika 2015-ci ildə yapon mühəndis Hirosi İşiquro tərəfindən hazırlanıb. Real xarici görünüşə malik olan robot gülə bilir və zarafat edir, lakin süntetik səslə danışır. Qeyd edək ki, Erika dəb dünyasına daxil olan ilk robot deyil. 2016-cı ildə Braziliyanın «ELLE» jurnalının dekabr sayının üz qabığında robot Sofiyanın şəkli yer almışdı.

### sağlamlıq

# Ən yaxşı qankəsici vasitələrdən biri

Tikanlı subtropik bitki olan əzgil qədim zamanlarda möcüzəli və sehrli ağac sayılırdı. Məsələn, səyahətə çıxan dərvişlər özlərini bədbəxt hadisələrdən qorumaq üçün əzgil ağacından hazırlanmış əsa gəzdirirdilər. Ana olmağa hazırlaşanlar isə hamiləliyin uğurlu keçməsi üçün boyunlarına həmin ağacdan düzəldilmiş həmayil asarmışlar.



Tərkibində olan maddələrə görə, əzgil almaya çox bənzəyir. O, ən yaxşı qankəsici vasitədir, həzmi yüngülləşdirir, bağırsaqları möhkəmləndirərək qanlı ishal, yəni dizenteriya əleyhinə təsir göstərir, ağciyərləri bəlğəmdən təmizləyir, qıcıqlanmanın qarşısını alaraq tənəffüsü yaxşılaşdırır, ürək ağrılarını yüngülləşdirir. Əzgil şirəsi böyrək daşlarını parçalayır, yarpağının dəmləməsi qanda şəkərin miqdarını azaldır. Sınanmış bəlğəmgətirici vasitə olan əzgilin lətinin balla qarışdırılıb qəbul edilməsi bronxit, öskürək zamanı nəfəsalmanı asanlaşdırır, nəfəs yollarını təmizləyir, iltihabın azalmasına kömək edir. Əzgil yarpaqlarından hazırlanan dəmləmə orqanizmdən ziyanlı maddələri xaric edir, böyrəkləri duzlardan təmizləyir, orqanizmə iltihabəleyhinə və virusəleyhinə təsir edir.

Yarpaqlarının dəmləməsi angina zamanı yaxşı təsir göstərir, həmçinin damaqları möhkəmləndirir, onların qanamasını azaldır, ağızda iltihablara qarşı mübarizə aparır.

Əzgil meyvəsi ağacdan dərilib bir müddət saxlanandan sonra yeyilir. Həmin müddətdə meyvə bir qədər qıcqırır, yumşalır və yeməli olur. Meyvəni soyuducuda saxlamaqla da yumşaltmaq olur.

### maraqlı

# Dibçəklərin yaraşığı...

El arasında «xınagülü» adı ilə tanınan balzaminin vətəni Afrika və Asiyanın tropik və subtropik əraziləridir. Yabanı halda ona Zənzibar adasında, Şərqi Afrika və Orta Asiyada da rast gəlmək mümkündür. 1596-cı ildə Avropaya gətiriləndən sonra ən populyar dibçək bitkilərindən birinə çevrilib.

Seleksiyaçıların səyi nəticəsində 500-dən artıq növü yaradılan balzamin birillik və ya çoxillik olur. Zoğları ətli və dikdurandır, uzunluğu 50 santimetrə çatır, yaşıl və bürünc rəngə çalan yarpaqları olur. Mavi və sarıdan başqa, bütün rəng tonlarında çiçəklərinə rast gəlmək mümkündür, bəzi növləri isə məxməri çiçəklər açır. Yazın sonlarından qışın əvvəllərinə qədər çiçəkləyir, münbit şəraitdə isə il boyu zərif çiçəklər açır. Çiçəklər solandan sonra yerində yaşıl rəngli meyvələr əmələ gəlir və sonra quruyaraq qutucuğa çevrilir, ona toxunanda partlayır və içindəki toxumlar ətrafa səpələnir.

Balzamin gözoxşayan və yaraşıqlı bitkidir, quru hava şəraitinə alışmaq və şimala baxan pəncərələrin qarşısında çiçək açmaq qabiliyyətinə malikdir.

### incəsənət

# Musiqimizn inciləri Özbəkistanda

Ölkəmizin Özbəkistandakı səfirliyinin nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) layihəsi ilə Daşkənddə «Azərbaycan musiqisinin inciləri» adlı disk buraxılıb. Diskə Üzeyir Hacıbəylinin «Koroğlu» operasından uvertüra, «Aşıqsayağı», «Arşın mal alan» operettasından qızların xoru, Fikrət Əmirovun «Kürd ovşarı» simfonik muğamı, «Mən səni araram», Qara Qarayevin «İldırımlı yollarla», «Yeddi gözəl» əsərlərindən fraqmentlər, Müslüm Maqomayevin «Azərbaycan», «Sənsiz», Rəşid Behbudovun «Ay Laçın», «Nazəndə sevgilim yadıma düşdü», «Ana», Şövkət Ələkbərovanın «Azərbaycanım», «Axşam», Zeynəb Xanlarovanın «Kimə nə qaldı», «Cavanlığım», «Sən mənimsən Qarabağ» və s. musiqi əsərləri daxil edilib. Alim Qasımovun «Əziz dostum», «Xatirələr», Akif İslamzadənin «Ala gözlüm», Flora Kərimovanın «Əzizim», «Darıxıram sənin üçün Şuşam», Azərinin «Çırpınırdı Qara dəniz», Elnarə Abdullayevanın «Azərbaycanım mənim», Mirələm Mirələmovun «Sənsiz» mahnıları da musiqi incilərimiz sırasına daxil edilərək diskdə yer alıb.

Qey edək ki, bundan əvvəl Özbəkistanda Müslüm Maqomayevin, Zeynəb Xanlarovanın, gənc xanəndə Aytən Məhərrəmovanın albomları, eləcə də «Azərbaycan muğamları» və «Azərbaycan xalq mahnıları» adlı disklər də buraxılıb.

### Müdriklər deyib ki...



***«Ən mühüm olan – insanlara düşünməyi öyrətməkdir».***

*Bertold Brext (1898-1956)*